Birinci Qarabağ müharibəsi şəhidləri

| S/S | Şəhid | Rütbəsi | SQ | Qısa tərcümeyi-halı |
|---|---|---|---|---|
| 1. | **Abbasov Azad Alı oğlu** | əsgər | | 1968-ci ildə Basarkeçər rayonunun Zərkənd kəndində doğulub. Birinci Qarabağ müharibəsi zamanı Goranboydakı birinci batalyonda xidmət etmişdir. Şaumyankənd uğrunda gedən döyüşlərdə şücaət göstərmişdir. Azad Abbasov 1992-ci ilin yayında Sərsəng su anbarı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. |
| 2. | **Abbasov Bahadur Bayram oğlu** | əsgər | | 1960-cı il 31 iyulda Naxçıvan şəhərində anadan olub. O, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri qismində I Qarabağ müharibəsinin bir sıra döyüşlərinə qatılıb. Azərbaycan Xalq Cəbhəsinin üzvü idi. O, 1992-ci il 24 may tarixində erməni tərəfi ilə əldə edilmiş razılıq əsasında meyidləri dəyişməyə gedərkən şəhid olub.[1] Naxçıvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. |
| 3. | **Abbasov Cəsarət Adil oğlu** | əsgər | | 4 aprel 1974-cü ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. Orta təhsilini Muğanlı kəndindəki səkkizillik məktəbdə alan Cəsarət 1990-cı ildə Qarabağ müharibəsi zamanı Muğanlı kənd özünümüdafiə dəstəsinə qoşulmuşdur. 1992-ci ilin 2 oktyabrında Muğanlı kəndi düşmənlər tərəfindən işğal edildi. Həmin il Cəsarət Milli Ordu sıralarına yazıldı. Cəsarət Abbasov 17 mart 1993-cü ildə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Ağcabədi Şəhidlər Xiyabanında dəfn edilmişdir.[2] |
| 4. | **Abbasov Ədalət Ümüd oğlu** | əsgər | | 10 may 1964-cü ildə anadan olub. 1991-ci ilin 6 sentyabrında şəhid olub.[3] |
| 5. | **Abbasov Qaytaran İbrahim oğlu** | əsgər | | 12 yanvar 1964-cü ildə Zəngilan rayonunun Qıraq Müşlan kəndində anadan olub. 1979-cu ildə Zəngilan Qıraq Müşlan kənd tam orta məktəbində orta təhsilini başa vurub. Daha sonra Qaytaran Abbasov 114 saylı texniki peşə məktəbində təhsil alıb. Hərbi xidmətini başa vurduqdan sonra Abbasov Mingəçevir şəhərində elektrik quraşdırma idarəsində çalışıb. 12 dekabr 1992-ci ildə Azərbaycanın ağır günlərində Milli Ordunun sıralarına könüllü olaraq qatıldı. Qaytaran Abbasov həmin il Ağdam, Tərtər, Qubadlı və Zəngilan rayonu uğrunda gedən döyüşlərdə döyüşdü. 1992-ci ildə Qaytaran Abbasov "Zəngilan" Batalyonunda döyüşüb. Qaytaran Abbasov 16 may 1993-cü ildə 29 yaşında Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəlpə yarası alaraq qəhrəmancasına şəhid olub. Zəngilan rayonunda Şəhidlar xiyabanında dəfn olunub. Qaytaran Abbasov ailəli idi. Sona adlı bir qızı yadigar qalıb. |

| | | | | |
|---|---|---|---|---|
| 6. | **Abbasov Mehti Yusif oğlu** | kapitan | | 1 yanvar 1960-cı ildə Ermənistan SSR-də anadan olub. 1992-ci ilin 26 fevralında şəhid olub.[3] |
| 7. | **Abbasov Nadir Əbi oğlu** | əsgər | | 14 iyul 1959-cu ildə anadan olub. 1993-cü ilin 31 dekabrında şəhid olub.[3] |
| 8. | **Abbasov Rasim Abbas oğlu** | əsgər | | 1973-cü ildə Şəmkir rayonunun Keçili kəndində anadan olmuşdur. 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz məntəqəsi istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur. |
| 9. | **Abbasov Səhiyəddin İsmayıl oğlu** | gizir | | 11 mart 1968-ci ildə Zəngilan rayonunun Gənlik kəndində anadan olub. 1985-ci ildə Zəngilan rayonu Genlik kənd tam orta məktəbində orta təhsilini başa vurub. Daha sonra Səhiyəddin Abbasov 114 saylı texniki peşə məktəbini bitirib. 1992-ci ildə isə Bakı Politexnik Məktəbini bitirib. Səhiyəddin Abbasov hərbi xidmətini Əfqanıstanda keçib. 1 mart 1993-cü ildə Azərbaycanın ağır günlərində Milli Ordunun sıralarına qatıldı. Səhiyəddin Abbasov bu müddət ərzində gizir rütbəsi alıb və taqım komandiri təyin olunub. Səhiyəddin Abbasov 11 aprel 1994-cü ildə Ağdərə rayonu uğrunda gedən döyüşlərdə qəlpə yarası alaraq qəhrəmancasına şəhid olub. Bakı şəhərində Şəhidlar xiyabanında dəfn olunub. Subay idi. "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı, SSRİ-nin "Beynəlmiləlçi döyüşçüyə" döş nişanı ilə təltif olunub. |
| 10. | **Abdullayev Aleksandr Şaban oğlu** | əsgər | | 30 mart 1963-cü ildə Göyçə mahalının Qoşabulaq kəndində anadan olub. Atası azərbaycanlı anası Oksana isə rus olub. Atası milis kapitanı olub. 1988-ci ildən Aleksandr Abdullayev Xanlar rayonunda məskunlaşıb. Goranboyda yaxşı döyüşçü kimi tanınıb. 18 iyul 1992-ci ildə şəhid olub. Xanlar rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.[4] |
| 11. | **Abdullayev Daşdəmir Rəhim oğlu** | əsgər | | 1976-cı il 20 yanvarda Xaçmaz rayonunun Müşqür qəsəbəsində anadan olub. 1994-cü ildə hərbi xidmətə yollanan Daşdəmir Abdullayev, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri qismində I Qarabağ müharibəsinin bir sıra döyüşlərinə qatıldı. O, 1994-cü ildə şəhid oldu. Əsgər Daşdəmir Abdullayev Xaçmaz rayonunun Müşqür qəsəbəsində dəfn olunub. |
| 12. | **Abdullayev İnkişaf Zülfüqar oğlu** | əsgər | | 17 avqust 1963-cü ildə anadan olub. 1994-cü ilin 26 iyununda şəhid olub.[3] |

| | | | | |
|---|---|---|---|---|
| 13. | **Abdullayev Nizami Şamuyar oğlu** | əsgər | | 6 sentyabr 1970-ci ildə Şirvan şəhərində anadan olub.[5] 1978–1988-ci illərdə Astara rayonu Maşxan kənd orta məktəbində oxuyub. Hərbi xidmətdə ilk döyüşü Beyləqan ərazisində olub. 25 kəndin müdafiəsi və azad edilməsində iştirak edib. Daha sonra onun xidmət apardığı hərbi hissə Ağdam bölgəsinə köçürülüb. İgidimiz 8 yanvar 1994-cü ildə şəhidlik zirvəsinə ucalıb. |
| 14. | **Abdullayev Rəhman Qafar oğlu** | əsgər | | 31.01.1956-cı ildə Daşkəsən rayonunda anadan olmuşdur. 1981–1986-cı illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində ali təhsil almışdır. 1986–1993-cü illərdə Daşkəsən rayonunda yerləşən Filizsaflaşdırma kombinatında mühəndis kimi çalışmışdır. Rəhman Abdullayev 1976–1978-ci illərdə hərbi xidmətdə olmuşdur. 1993-cü il martın 18-də ehtiyatda olan zabit kimi milli ordu sıralarına çağırılmışdır. O, əvvəlcə 877 saylı hərbi hissənin motoatıcı taborunun bölük komandiri vəzifəsində xidmət etməyə başlamış, sonra isə düşmənin Füzuli rayonuna etdiyi hücumu ilə əlaqədər, ön cəbhədə gedən döyüşlərin şiddətlənməsi səbəbindən Rəhman Abdullayev tabeliyində olan bölüklə birlikdə 877 saylı hərbi hissədən Füzuli rayonunda yerləşən 702 saylı hərbi hissəyə göndərilmiş, motoatıcı briqadada motoatıcı taborun bölük komandiri vəzifəsində xidmətini davam etdirmişdir. Rəhman Abdullayev xidmət etdiyi hərbi hissənin düşmənlə təmas nöqtəsində yerləşməsi səbəbindən tabeliyində olan hərbi qulluqçularla birlikdə döyüşlərdə iştirak etmişdir. O, iştirak etdiyi döyüşlərdə bir neçə dəfə yaralanmış, lakin yenidən döyüşlərə qatılmışdır. Rəhman Abdullayev Füzuli rayonunun Aşağı Əbdülrəhmanlı kəndinin işğaldan azad edilməsi uğrunda 1994-cü il yanvar ayının əvvəllərində yenidən döyüşlərə qatılmış və kəndin bir hissəsi işğaldan azad edilmişdir. Həmin döyüşlərdə erməni silahlı qüvvələri böyük itki verərək kənddəki mövqelərini bir qədər geri çəkməyə məcbur olmuşlar. 1994-cü il yanvar ayının 10-da düşmənin gecə saatlarında qəfildən etdiyi hücum zamanı Rəhman Abdullayev və tabeliyindəki cəbhə yoldaşları düşmən mühasirəsinə düşərək qəhrəmancasına şəhid olmuşlar.[6] Rəhman Abdullayev ailəli olmuş və iki övladı yadigar olaraq qalmışdır. |
| 15. | **Abdullayev Şakir Əkbər oğlu** | əsgər | | 8 dekabr 1962-ci ildə anadan olub. 1993-cü ilin 28 dekabrında şəhid olub.[3] |
| 16. | **Abdullayev Vaqif Muxtar oğlu** | əsgər | | 7 aprel 1969-cu ildə anadan olub. 1994-cü ilin 16 fevralında şəhid olub.[3] |

| | | | | |
|---|---|---|---|---|
| 17. | **Abdullayev Zeynal Səlim oğlu** | əsgər | | 7 mart 1969-cu ildə anadan olub. 1994-cü ilin 2 avqustunda şəhid olub.[3] |
| 18. | **Abdulhəmidov Əbülfəz Nöhbala oğlu** | əsgər | | 1970-ci il 15 apreldə Xaçmaz rayonunun Tel qəsəbəsində anadan olub. 1992-ci ildə hərbi xidmətə yollanan Əbülfəz Abdulhəmidov, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri qismində I Qarabağ müharibəsinin bir sıra döyüşlərinə qatıldı. O, 1992-ci ildə şəhid oldu. Əsgər Əbülfəz Abdulhəmidov, Xaçmaz rayonunun Tel qəsəbəsində dəfn olunub. |
| 19. | **Abdulrəhmanov Cavid Təvəkkül oğlu** | əsgər | | 1972-ci il 26 noyabrda Şamaxı şəhərində anadan olub. Orta təhsilini 1989-cu ildə Şamaxı şəhərində yerləşən Cəmobəy Cəbrayılbəyli adına orta məktəbdə alan Cavid Abdurahmanov, daha sonra Bakı Kooperativ Texnikumuna daxil olsa da, I Qarabağ müharibəsi ilə əlaqədar təhsilini başa vurmalı oldu. 1992-ci ildə hərbi xidmətə yollanan və bir sıra döyüşlərə qatılan Cavid Abdurahmanov 1992-ci il 19 oktyabrda Kəlbəcər rayonunun Çıldıran kəndi uğrunda gedən döyüşlərdə şəhid olub. Şamaxı şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. |
| 20. | **Abiyev Məhərrəm Bürcəli oğlu** | əsgər | | 5 fevral 1973-cü ildə Astara rayonunun Vaqo kəndində anadan olub.[7] 1991-ci ilin noyabrında ordu sıralarına çağırılıb. Altı aya qədər təlim məşqlərdə olub. Sonra isə döyüş bölgələrinə göndərilib. Ağdərə, Beyləqan, Ağdam, Füzuli və bir çox yaşayış məntəqəsinin müdafiəsində və düşməndən təmizlənməsində igidliklə döyüşüb. 11 dekabr 1993-cü ildə Məhərrəm Abiyev qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Oxuduğu Astara rayonunun Vaqo kənd tam orta məktəbinə onun adı verilib. |
| 21. | **Abudov Nəsimi Şahbala oğlu** | əsgər | | 1969-cu il 10 sentyabrda Xaçmaz rayonunun Çarxı qəsəbəsində anadan olub. 1993-cü ildə hərbi xidmətə yollanan Nəsimi Abudov, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri qismində I Qarabağ müharibəsinin bir sıra döyüşlərinə qatıldı. O, 1993-cü ildə şəhid oldu. Əsgər Nəsimi Abudov, Xaçmaz rayonunun Çarxı qəsəbəsində dəfn olunub. |
| 22. | **Abutalıbov Eyvaz Cəmil oğlu** | əsgər | | 1959-cu il dekabrn 4-də Şuşada doğulmuşdur. Şuşa şəhəri 4 nömrəli orta məktəbdə oxumuşdur. Eyvaz 816 nömrəli Şuşa batalyonunun tərkibində Şuşanın müdafiəsi uğrunda iştirak etmişdir. 1992-ci il yanvarın 26-da Daşaltı əməliyyatı da şəhid olmuşdur. Şuşadakı Şuşa Şəhidlər Xiyabanında dəfn olmuşdur. Ailəli idi. Mahmud, Elvin, Elçin adlı üç övladı böyüyür.[8] |
| 23. | **Abuzərov Elşən** | əsgər | | 1975-ci il 23 sentyabrda Xaçmaz rayonunun Nizova qəsəbəsində anadan olub. 1993-cü ildə hərbi xidmətə yollanan Elşən Abuzərov, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri qismində I Qarabağ müharibəsinin bir sıra döyüşlərinə qatıldı. O, 1993-cü |

| | | | | |
|---|---|---|---|---|
| | **Abis oğlu** | | | ildə şəhid oldu. Əsgər Elşən Abuzərov, Xaçmaz rayonunun Nizova qəsəbəsində dəfn olunub. |
| 24. | **Ağayev Yaqub Əsgər oğlu** | leytenant | | 26 avqust 1965-ci ildə Astara rayonunun Artupa kəndində anadan olub.[9] 1994-cü ildə könüllü olaraq cəbhəyə yollanıb. Əsas döyüşdüyü ərazi Füzuli bölgəsi olub. Böyük Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə qəhramancasına savaşan igidimiz 26 aprel 1994-cü ildə şəhidlik zirvəsinə ucalıb. |
| 25. | **Ağabalayev Akif Ağabala oğlu** | əsgər | | 1974-cü il 13 mayda Xaçmaz şəhərində anadan olub. 1992-ci ildə hərbi xidmətə yollanan Akif Ağabalayev, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri qismində I Qarabağ müharibəsinin bir sıra döyüşlərinə qatıldı. O, 1992-ci ildə şəhid oldu. Əsgər Akif Ağabalayev Xaçmaz şəhərində dəfn olunub. |
| 26. | **Alxanov Alxan Əşrəf oğlu** | əsgər | | 1969-cu il 27 apreldə Şamaxı rayonunun Sabir qəsəbəsində anadan olub. 1992-ci ildə hərbi xidmətə yollanan və bir sıra döyüşlərə qatılan Alxan Alxanov, 1992-ci il 20 yanvarda Ağdam rayonu istiqamətində şəhid olub. Alxan Alxanov, Ağdam rayonunda dəfn olunub. Azərbaycan Prezidenti Heydər Əliyevin 16 sentyabr 1994-cü il tarixli 203 nömrəli fərmanı ilə ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.[10] |
| 27. | **Allahquliyev Mahir Məhəmməd oğlu** | əsgər | | 1968-ci ildə iyunun 11-də Cəbrayıl rayonunun Xanağabulaq kəndində anadan olub. Anası Cəbrayıl rayonunun Dağtumas kəndindən olan ibtidai sinif müəllimi Rasta Hüseynova,[11] atası aşıq Məhəmməd Allahquliyevdir. Mahir 1975-ci ildə Qazanzəmi kənd orta məktəbinə 1-ci sinifə daxil olur. 1985-ci ildə həmin məktəbi bitirib 1 il sonra hərbi xidmətə yollanır. Hərbi xidmətini Rusiyanın Stavropol şəhərində başa vurduqdan sonra 1988-ci ildə könüllü olaraq özünümüdafiə dəstəsində döyüşlərə qatılır. Mahir eyni zamanda Füzuli rayonunda yerləşən sürücülük məktəbində təhsil alıb.<br><br>1993-cü il aprelin 12-si ailə həyatı quran Mahir Allahquliyev 1993-cü il avqustun 23-də Cəbrayıl rayonunun Dağtumas kəndində, "İnçə" körpüsünün yaxınlığında itkin düşür. 1994-cü ildə oğlu Sadiq Allahquliyev dünyaya gəlir. 2-ci Qarabağ müharibəsindən sonra rusiyalı jurnalist Yuri Romanoviç sosial şəbəkələrdə bəzi materiallar yayımlayır, bununla da Mahir Allahquliyevin erməni gülləsinə tuş gələrək, şəhid olduğu öz təsdiqini tapır.[12] Şəhidin xatirəsini əbədiləşdirmək üçün Biləsuvar rayonunun Cəbrayıl şəhərciyində şəhidlərə ucaldılmış abidədə şəkli yerləşir. Həmçinin, Cəbrayıl rayonunun Dağtumas kəndində qoyulmuş "Şəhidlər bulağı"nda və "Şəhidlər lövhəsi"ndə ("İnçə" körpüsünün yaxınlığı) Mahir Allahquliyevin də şəkli yer alır. 32 ildən sonra Birinci Qarabağ Müharibəsi veteranı |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Mahmud Allahquliyev qardaşı Mahir Allahquliyevə Cəbrayıl rayonunun Dağtumas kəndində xatirə lövhəsi ucaldıb.<br><br>Mahir Allahquliyevin məzarı yoxdur. Simvolik məzarı Şüvəlan qəbiristanlığındadır.<br><br>Şəhidin həyat yolu "Hürriyyət", "Cümhuriyyət", "Şərq", "Olaylar", "Kredo" qəzetlərində işıqlandırılıb.[13][14][15]<br><br>Mahir Allahquliyev 14 avqust 2025-ci ildə "Xarı Bülbül" fəxri fərmanı ilə təltif olunub. |
| 28. | **Allahverdili Hikmət Əsəd oğlu** | leytenant | | 7 yanvar 1965-ci ildə Cəbrayıl rayonunda anadan olub. 1992-ci ilin 27 iyulunda şəhid olub.[3] |
| 29. | **Allahverdiyev Allahverdi Əlişirin oğlu** | çavuş | | 11 may 1966-cı ildə anadan olub. 1994-cü ilin 18 aprelində şəhid olub.[3] |
| 30. | **Allahverdiyev Nəriman Məhərrəm oğlu** | əsgər | | 15 aprel 1967-ci ildə anadan olub. 1994-cü ilin 15 aprelində şəhid olub.[3] |
| 31. | **Allahyarov Rüstəm Söhrab oğlu** | əsgər | | 25 noyabr 1973-cü ildə Ağdaş rayonunun Yenicə (Ağdaş) kəndində anadan olub. 1981-ci ildə Yenicə kənd tam orta məktəbinin birinci sinfinə daxil olub. 1991-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. 1992-ci il martın 2-də hərbi xidmətə çağırılıb. 4 iyul 1992-ci ildən Sumqayıt batalyonunun tərkibində ağdam rayonunda vuruşub. Ağdərə ətrafında döyüşlərdə olub. 11 oktyabr 1992-ci il tarixdə Ağdam rayonu Qazançılar kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olub.[16] Ağdaş rayonu Yenicə kəndi tam orta məktəbi Rüstəm Allahyarov adını daşıyır.[17] |
| 32. | **Aslanov İlyas Nəsrəddin oğlu** | əsgər | | 10 oktyabr 1962-ci ildə anadan olub. 1993-cü ilin 13 iyununda şəhid olub.[3] |
| 33. | **Atakişiyev Sahil** | | | 1974-cü il 2 iyulda Şamaxı rayonunun Məlikçobanlı kəndində anadan olub. 1992-ci ildə hərbi xidmətə yollanan və bir sıra döyüşlərə qatılan Sahil Atakişiyev 1993-cü il 7 martda Tərtər |

| | | | | |
|---|---|---|---|---|
| | **Durasan oğlu** | | | rayonu istiqamətində şəhid olub. Şamaxı rayonunda Məlikçobanlı kəndində dəfn olunub. |
| 34. | **Atamoğlanov Əbülfət Sabir oğlu** | əsgər | | 4 iyun 1967-ci ildə Salyan rayonunun Kürsəngi kəndində anadan olub. 1993-cü il avqustun 31-də Füzulinin Kürdmahmudlu kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşüb. 2023-cü ildə antiterror əməliyyatları zamanı Xocavəndin Edilli kəndi düşmən işğalından azad edildikdən sonra kütləvi məzarlıq aşkarlanıb. Ekspertiza zamanı meyit qalıqlarından birinin Atamoğlanov Əbülfətə məxsus olduğu təsdiqlənib. Birinci Qarabağ müharibəsində Füzulinin Kürdmahmudlu kəndində itkin düşən və meyitinin qalıqları 30 il sonra Xocavənddə Edilli kəndində aşkarlanan Atamoğlanov Əbülfət Sabir oğlunun nəşi Salyan rayonunun Kürsəngi kəndinə gətirilib. Orada şəhidlə vida mərasimi keçirilib. 28 sentyabr 2023-cü ildə mərhum doğulduğu Kürsəngi kəndində torpağa tapşırılıb.[18] |
| 35. | **Babaşov Anar Əlibaba oğlu** | əsgər | | 1972-ci il 15 dekabrda Şamaxı rayonunun Şəhriyar qəsəbəsində anadan olub. 1992-ci ildə hərbi xidmətə yollanan və bir sıra döyüşlərə qatılan Anar Babaşov, 1992-ci il 29 oktyabrda Ağdam rayonu istiqamətində şəhid olub. Anar Babaşov, Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub. Azərbaycan Prezidenti Heydər Əliyevin 9 mart 2007-ci il tarixli 2019 nömrəli fərmanı ilə ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.[1] |
| 36. | **Babayev Aqil Sultanəli oğlu** | əsgər | | 16 iyul 1975-ci ildə Astara rayonunun Hamoşam kəndində anadan olub.[2] 19 oktyabr 1993-cü ildə ordu sıralarına çağırılıb. Əvvəlcə Qusarda hərbi təlim keçib. Daha sonra Füzuli bölgəsində müxtəlif döyüşlərdə iştirak edib. Son iki ayı isə Cəbrayıl rayonu ərazisində döyüşərək 12 fevral 1994-cü ildə Cocuq Mərcanlı kəndində şəhid olub. |
| 37. | **Babayev Əhmədağa Şahbaba oğlu** | əsgər | | 23 dekabr 1968-ci ildə İsmayıllı rayonu Quşencə kəndində anadan olub. 1993-cü ildə könüllü olaraq Qarabağ müharibəsinə gedib. Yanvar ayının 30-da Füzuli istiqamətində döyüşlərdə şəhid olmuşdur. 1 fevral 1994-cü ildə Quşencə kəndində dəfn olunmuşdur. 17 sentyabr 1996-cı ildən İsmayıllı rayonu Quşencə kəndi tam orta məktəbi Əhmədağa Babayev adını daşıyır. Babayeva Firəngiz Həlim qızı ilə ailəli idi.[3] |
| 38. | **Babayev Müşviq Adil oğlu** | əsgər | | 1971-ci il 24 fevralda Şamaxı rayonunun Sabirli kəndində anadan olub. 1992-ci ildə hərbi xidmətə yollanan və bir sıra döyüşlərə qatılan Müşviq Babayev 1992-ci il 10 sentyabrda Ağdərə rayonu istiqamətində şəhid olub. Müşviq Babayev Şamaxı şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. |

| | | | | |
|---|---|---|---|---|
| 39. | **Babayev Rəhman Orucəli oğlu** | əsgər | | 17 yanvar (bəzi mənbələrdə: 25 yanvar) 1974-cü ildə Astara rayonunun Hamoşam kəndində anadan olub.[4] O, ilk dəfə Ağdərənin Talış kəndi uğrunda döyüşlərə qatılıb. Son döyüşü 13 iyun 1993-cü ildə olub. Şəhidin oxuduğu Astara rayonunun Hamoşam kənd tam orta məktəbinə onun adı verilib. |
| 40. | **Babayev Telman Nurməmməd oğlu** | əsgər | | 4 may 1970-ci ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1993-cü ilin 7 yanvarında itkin düşüb.[5] |
| 41. | **Balaşov Faiq Səməd oğlu** | əsgər | | 20 avqust 1970-ci ildə Neftçala rayonunda anadan olub. 1994-cü ilin 31 yanvarında itkin düşüb.[5] |
| 42. | **Babayev Sərvər Ərəb oğlu** | əsgər | | 3 yanvar 1969-cu ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1992-ci ilin 10 oktyabrında şəhid olub. Sərvər Babayev Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.[5] |
| 43. | **Babayev Şəfi Adil oğlu** | | | Sabirabad rayonunun Surra kəndində anadan olub. Hazırda həmin kənddə yerləşən, Şəfi Babayevin təhsil aldığı orta məktəb şəhidin adını daşıyır. |
| 44. | **Bağırov Alim Əlibala oğlu** | leytenant | | 26 iyul 1955-ci ildə Salyan rayonunda anadan olub. 1994-cü ilin 16 aprelində şəhid olub. Alim Bağırov Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.[5] |
| 45. | **Bağırov Ələkbər Fazil oğlu** | əsgər | | 8 avqust 1969-cu ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1994-cü ilin 20 aprelində şəhid olub. Ələkbər Bağırov Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.[5] |
| 46. | **Bağırov Fizuli İslam oğlu** | əsgər | | 25 fevral 1970-ci ildə Gəncə şəhərində anadan olmuşdur. O, 37 saylı orta məktəbin 8-ci sinfini bitirdikdən sonra, avtomobil rəngsazı peşəsinə yiyələnmişdir. Fizuli Bağırov 1988–1990-cı illərdə Leninqrad şəhərində həqiqi hərbi xidmətdə olmuş, hərbidən qayıtdıqdan sonra isə Gəncə şəhərində yerləşən "VAZ-ın təmiri emalatxanası"nda rəngsaz kimi işləmişdir. Fizuli Bağırov 1992-ci ilin yanvar ayında könüllü olaraq silaha sarılaraq cəbhəyə yollanmış, 709 saylı hərbi hissənin tərkibində xidmət etməyə başlamışdır. O, bir neçə kəndin müdafiəsində hünərlə iştirak etmiş, döyüş bacarığı ilə şəxsi heyətin böyüş hörmətini qazanmış və ona tapşırılan döyüş tapşırıqlarını layiqincə yerinə yetirmişdir. Bağırov Fizuli İslam oğlu 6 iyul 1993-cü ildə Ağdam rayonunun Şahbulaq dağında döyüş əməliyyatını yerinə |

| | | | | |
|---|---|---|---|---|
| | | | | yetirərkən itkin düşmüş, Kəpəz Rayon Məhkəməsinin 2–2222001 nömrəli qətnaməsi ilə ölmüş elan edilmişdir. |
| 47. | **Bağırov Telman Rəşid oğlu** | əsgər | | 2 aprel 1967-ci ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1994-cü ilin 4 oktyabrında şəhid olub. Telman Bağırov Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.[5] |
| 48. | **Bağırov Teymur Əbülfəz oğlu** | əsgər | | 12 yanvar 1975-ci ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1993-cü ilin 4 sentybarında şəhid olub. Teymur Bağırov Hacıqabul rayonu, Muğan Gəncəli kənd qəbiristanlığında dəfn olunub.[5] |
| 49. | **Bağırov Yusif Aydın oğlu** | əsgər | | 27 noyabr 1969-cu ildə Sabirabad rayonunda anadan olub. 1992-ci ilin 16 martında şəhid olub. Yusif Bağırov Füzuli rayonunda dəfn olunub.[5] |
| 50. | **Balakişiyev Rövşən Misir oğlu** | əsgər | | 15 dekabr 1967-ci ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. 1973-cü ildə Muğanlı kənd səkkizillik məktəbinin birinci sinfinə daxil olmuşdur. Məktəbi bitirdikdən sonra 1985-ci ildə hərbi xidmətə yollanmışdır. Leninqrad (indiki Sankt-Peterburq) şəhərində xidmət edən Rövşən hərbi xidmət müddətində dəfələrlə fəxri fərmanlarla təltif edilmişdir. 1988-ci ildə başlanan Qarabağ müharibəsinə qədər Rövşən xidmət etdiyi şəhərdə yaşamış, burada ailə həyatı qurmuşdu. Müharibə başlayanda Rövşən ölkəsinə qayıdır, müharibədə iştirak edir. O, Muğanlı kənd özünümüdafiə dəstəsinin üzvü olaraq Şişqaya, Gülmətəpə, Çirişli dağı istiqamətində gedən döyüşlərdə, Xocavəndin müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2 oktyabr 1992-ci ildə Muğanlı, Kuropatkino, Əmiranlar kəndinə düşmən hücum edir və müqavimətlərə baxmayaraq üç kəndi işğal edir. Azərbaycan Milli Ordusu yarandıqdan sonra kəndin özünümüdafiə dəstəsi Ağcabədi rayon 161 saylı hərbi hissənin batalyonlarından birinə çevrilir. Bundan sonra, döyüşçülər Nərgiztəpədə mövqe seçdilər. Onlar dəfələrlə işğal olunmuş kəndlərə hücum planları hazırlasalar da, təəssüf ki, döyüşlərin nəticəsi uğurlu olmamışdır. Rövşən Balakişiyev 30 dekabr 1992-ci ildə Daşlıtəpə adlanan yerdə içində olduğu "UAZ" markalı avtomaşının minaya düşməsi nəticəsində şəhid olmuşdur. Ağcabədi Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi, bir qız övladı yadigar qaldı. |
| 51. | **Balayev Cavanşir Musa oğlu** | əsgər | | 1958-ci il 25 fevralda Şamaxı şəhərində anadan olub. 1991-ci ildə hərbi xidmətə yollanan və Naxçıvanlı, Tap Qaraqoyunlu, Gülablı qəsəbələri uğrunda döyüşlərə, həmçinin Xocalı rayonunun müdafiəsi uğrunda döyüşlərə qatılan Cavanşir Balayev, 1992-ci il 12 iyunda Ağdam |

| | | | | |
|---|---|---|---|---|
| | | | | rayonu istiqamətində baş tutan Qaraqaya əməliyyatında şəhid olub. Ağdam rayonunda dəfn olunub. |
| 52. | **Bayramov Natiq Əsəd oğlu** | əsgər | | 21 may 1974-cü ildə Salyan rayonunda anadan olub. 1994-cü ilin 15 yanvarında şəhid olub. Natiq Bayramov Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.[5] |
| 53. | **Bayramov Ramiz** | əsgər | | 1963-cü il Bakı şəhəri Zabrat qəsəbəsində anadan olub. 1967-ci ildə Zabrat qəsəbəsi 33 saylı məktəbə daxil olub və 1976-cı ildə məktəbi bitirib. Təhsilini Azərbaycan Texniki Universitetində "Texnologiyaların idarə edilməsi" ixtisası üzrə davam etdirmiş, ardınca Sankt-Peterburqda hərbi xidmətdə olmuşdur. Xidmətini başa vurduqdan sonra Ramiz yenidən Bakıya qayıtmış və 1982-ci ildən Zabrat maşın qayırma zavodunda baş mühəndis işləmişdir.<br><br>Ailəli idi, bir övladı yadigar qalıb. Ramiz Bayramov 1991-ci ildə Müdafiə Nazirliyində texniki baxış şöbəsində gizir rütbəsində fəaliyyətə başlamışdır. Ardınca könüllü olaraq döyüş bölgəsinə yollanmış və tankçı olaraq cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə fəal iştirak etmişdir. Ramiz Bayramov 1992-ci il mayın 7-dən 8-nə keçən gecə Şuşanın azad edilməsi zamanı itkin düşmüşdür. Ehtimallara görə onun idarə etdiyi tank mühasirəyə düşmüş və Ramiz Bayramov qəhrəmancasına şəhid olmuşdur. Binəqədi rayonunda yaşadığı ünvana onun adı verilmiş və binaya barelyefi yerləşdirilmişdir.[6] |
| 54. | **Bəşirov İlqar Məstiəli oğlu** | əsgər | | 12 mart 1973-cü ildə Astara rayonunun Maşxan kəndində anadan olub.[7] 1992-ci ilin yazında orduya yollanıb. İlqarın döyüş yolu Ağdamdan başlayıb. Şelli, Şıxlabalı, Muğanlı kəndlərinin müdafiəsində qəhrəmanlıqla döyüşüb. Daha sonra Ağdərə və Beyləqan istiqamətlərində, ön xətdə, düşmənlə üzbəüz mövqedə Vətənin keşiyini çəkib. O, 29 dekabr 1993-cü ildə şəhid olub. |
| 55. | **Biliyev Azər Həsən oğlu** | polis | | 1970-ci il sentyabrın 15-də Şuşa şəhərində anadan olmuşdur.[8] Şəhər 14 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İstitututunun maliyyə iqtisad fakültəsinə daxil olmuşdur. 2-ci kursdan hərbi xidmətə çağırılmış və xidməti vəzifəsini başa çatdırdıqdan sonra Şuşa DİŞ-də işə başlamışdır. 08.04.1992-ci ildə şəhid olmuşdur. Şuşa Şəhidlər Xiyabanı dəfn olumuşdur. |
| 56. | **Budaqov Ramiz Qərib oğlu** | əsgər | | 7 noyabr 1973-cü ildə Qazaxıstan vilayətində anadan olub. Ramiz Budaqov subay idi. Əsgər Ramiz Budaqov 1994-cü ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində Ağdam Rayonunun Gülçülük kəndində gedən döyüş zamanı tabor komandirinin həyatını xilas edərək, özü qəhrəmancasına şəhid oldu. Ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib. |

| | | | | |
|---|---|---|---|---|
| 57. | **Bünyatov Elsevər Akif oğlu** | əsgər | | 12 iyun 1974-cü ildə Qazax rayonunda anadan olub. 1994-cü ilin 17 aprelində şəhid olub. Elsevər Bünyatov Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.[5] |
| 58. | **Cabbarov Fazil Yusif oğlu** | əsgər | | 1969-cu ildə Kəlbəcərdə anadan olmuşdur. 1992-ci ildə könüllü olaraq Kəlbəcər batalyonunda xidmətə başlamış və özünü bacarıqlı kəşfiyyatçı kimi göstərmişdir. 1992-ci ilin may ayının 29-da Laçının Piçənis kəndində ermənilərlə döyüşdə igidlik göstərmiş və həlak olmuşdur. |
| 59. | **Camalov Rasim İsmayıl oğlu** | əsgər | | 27 noyabr (bəzi mənbələrdə: 20 dekabr) 1959-cu ildə Astara şəhərində anadan olub. Astara şəhər 7 saylı tam orta məktəbini bitirib. 1993-cü ilin yaz aylarında cəbhəyə getmək üçün hərbi komissarlığa müraciət edib və cəbhəyə yola düşüb. Onun ilk döyüşü Füzuli rayonununda olub. Çox keçmədən Ağdam rayonunda döyüşlərdə iştirak edir və erməni faşist dəstələrinə qarşı uğurlu əməliyyatlarda fəallıq göstərir. 15 yanvar 1994-cü il tarixində qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.[1] Astara şəhər 7 nömrəli tam orta məktəbi onun adını daşıyır. |
| 60. | **Cavadov Elman Xurşud oğlu** | polis | | 1973-cü il Sumqayıt şəhərində dünyaya gəlib.[2] 19 iyun 1992-ci ildə Ağdərə rayonunun Aterk kəndində həlak olmuşdur. Şəhidlər Xiyabanında dəfn olunmuşdur. 19 noyabr 1992-ci il tarixli müvafiq Fərman ilə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir.[3] |
| 61. | **Cəfərov Bəxtiyar Rafiq oğlu** | əsgər | | 1966-cı il Yevlax rayonunun Xaldan kəndində anadan olub. 1993-cü il 18 yanvarda Ağdərə rayonunda şəhid olmuşdur.[4] Xaldan qəsəbəsində dəfn olunmuşdur.[5] |
| 62. | **Cəfərov Bəxtiyar Yaqub oğlu** | polis | | 1973-cü ildə Xırdalan şəhərində anadan olmuşdur. 19.6.1992-ci ildə Ağdərə rayonunda həlak olmuşdur. Azərbaycan Prezidentinin 19 noyabr 1992-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir.[6] Adı əbədiləşdirilərək oxuduğu 3 saylı Xırdalan şəhər orta məktəbinə onun adı verilmişdir. |
| 63. | **Cəfərov Xosrov Mirzə oğlu** | əsgər | | 1973-cü il fevralın 3-də Göyçay rayonunun Alpout kəndində anadan olub. Kənd orta məktəbini bitirəndən sonra 106 saylı Texniki peşə məktəbin daxil olub. Burada sürücülük peşəsinə yiyələnəndən sonra 1991-ci ildə könüllü olaraq Milli Ordu sıralarına daxil olub. 1992-ci ilin iyulunda Kəlbəcər rayonunun Umudlu kəndi yaxınlığında gedən döyüşlərdə qəhrəmancasına həlak olub. Doğulduğu Alpout kənd qəbristanlığında dəfn olunub. Hazırda Alpout kənd orta məktəbi onun adını daşıyır. |

| | | | | |
|---|---|---|---|---|
| 64. | **Cəfərov Məsim Cəfər oğlu** | əsgər | | 25 may 1955-ci ildə Göygöl rayonunun Pənahlılar kəndində anadan olmuşdur. O, 1992-ci ildə könüllü olaraq Göygöl rayonunun Dozular batalyonuna yollanmış və 815 saylı hərbi hissənin tərkibində döyüşmüşdür. 4 iyul 1992-ci ildə Ağdərə uğrunda gedən qızğın döyüşlərin birində qəhrəmancasına şəhid olmuşdur. Pənahlılar kənd orta məktəbi Məsim Cəfərovun adını dayışır.[7] |
| 65. | **Cəfərov Rafail Baba oğlu** | əsgər | | 1956-cı ildə Bakı şəhərində dünyaya gəlib. Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsi Hacı Zeynalabdin Tağıyev adına 123 saylı tam orta məktəbini bitirib. 1994-cü ildə Ağdamda şəhid olmuşdur.[8][9] Mərdəkan bələdiyyəsi Cəfərov Rafail Baba oğlu adını daşıyan küçəyə 2018-ci ilə şəhidimizin xatirə lövhələri hazırlananaraq, onların yaşadıqları küçənin başlanğıcına vurulmuşdur[10] |
| 66. | **Çıraqov Elman Almaz oğlu** | əsgər | | 24 sentyabr 1971-ci ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1994-cü ilin 21 avqustunda itkin düşüb.[1] |
| 67. | **Çerneqa Ruslan Vladimir oviç** | əsgər | | 7 sentyabr 1975-ci ildə Baki şəhərində anadan olub. Atası ukraynalı, anası Böyükxanım Cavadova azərbaycanlıdır. Ruslan 1ci sinifdən 9-cu sinfə qədər Xətai rayonundakı 245 nömrəli tam orta məktəbdə təhsil alıb. 1990-cı ildə 9-cu sinfi bitirdikdən sonra peşə məktəbində təhsilini davam etdirib.<br><br>Peşə məktəbini bitirdikdən sonra isə 18 yaşı tamam olan kimi könüllü Milli orduya yazılıb.<br><br>10 yanvar 1994-cü il tarixində Füzulinin erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə Azərbaycan Milli Ordusunun əsgəri Çernega Ruslan Vladimiroviç şəhid olur. |
| 68. | **Dadaşo v Səxavət İnqilab oğlu** | əsgər | | 23 yanvar 1974-cü ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olub. Kənd orta məktəbini bitirərək Bakı şəhərində yerləşən 14 saylı Texniki Peşə Məktəbində qaynaqçı peşəsinə yiyələnib. 1992-ci ilin mayında hərbi xidmətə yollanıb. Çox keçmədən cəbhə bölgələrinə gedib. Qubadlı və Laçın uğrunda gedən döyüşlərdə iştirak edib. Qubadlının işğalından sonra Səxavət evə qayıdıb. 1993-cü ilin oktyabrında o, yenidən Göyçay könüllülər batalyonuna qoşulur. Şükürbəyli Aşağı və Yuxarı Əbdürrəhmanlı, Kərimbəyli və digər kəndlər uğrunda gedən döyüşlərdə iştirak edib. 1994-cü ilin yanvarında Aşağı Əbdürrəhmanlı kəndini almaq üçün 6 nəfər döyüşçü ilə birgə hücuma keçiblər. Lakin qüvvələr nisbətinin qeyri-bərabər olması səbəbindən əsgərlərimiz böyük təlefatla hücumu dayandırıblar. Səxavət bu döyüşdə ağır yaralanaraq şəhid olub və 5 ay sonra – 1994-cü ilin mayında doğma kəndlərində dəfn olunub.[1] |

| | | | | |
|---|---|---|---|---|
| 69. | **Eldarov Kərim Ağarəhim oğlu** | əsgər | | 1967-ci ildə anadan olub. 1993-cü ilin 12 iyununda şəhid olub.[1] |
| 70. | **Eldarov Rasim Səfər oğlu** | əsgər | | 17 iyul 1968-ci ildə anadan olub. 1993-cü ilin 31 avqustunda şəhid olub.[1] |
| 71. | **Eynullayev Fariz Əlifağa oğlu** | əsgər | | 28 may 1971-ci ildə Masallı rayonunda anadan olub. 1993-cü ilin 6 yanvarında şəhid olub. Fariz Eynullayev Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.[2] |
| 72. | **Eynullayev Fuad Firid oğlu** | əsgər | | 15 may 1966-ci ildə anadan olub. 1994-cü ilin 18 aprelində şəhid olub.[1] |
| 73. | **Eyvazov Yaşar Sahib oğlu** | əsgər | | 1 may 1973-cü ildə anadan olub. 1993-cü ilin 17 fevralında şəhid olub.[1] |
| 74. | **Əliyev Akif Yasim oğlu** | əsgər | | 15 mart 1973-cü ildə Qərbi Azərbaycanın Amasiya rayonunda doğulmuşdur. 1988-ci ildə Qərbi Azərbaycandan deportasiya olunmuşdur. 20 noyabr 1991-ci ildə Milli Orduya könüllü getmişdir. Sıravi əsgər 702-ci hərbi hissənin avtomatçısı idi. 07.10.1992-ci ildə Ağdərə rayonununda həlak olmuşdur. Bakı şəhərinin Bakıxanov qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.[1] |
| 75. | **Əliyev Arzu Yaqub oğlu** | polis | | 1963-cü ilin avqust ayında Oğuz rayonu Padar (Oğuz) kəndində anadan olub. 1980-ci ildə həmin kəndin orta məktəbini bitirib, Bakı Xüsusi Orta Milis Məktəbində təhsil alıb. Əvvəlcə Sumqayıtda, sonra Şəkidə xidmət edib. 1990-cı ilin dekabrında Şəki daxili işlər şöbəsinin bir qrup əməkdaşı ilə birlikdə düşmən hücumunun qarşısının alınması məqsədilə döyüşlərə qatılıb.[2] 1990-cı ilin dekabrında Şəki Daxili İşlər şöbəsindən Əsgəran rayonunun Cəmilli kəndinə göndərilmişdir. Dekabrın 15-də Cəmilli kəndindən Şuşanın Kosalar kəndinə doğru hərəkət edərkən yolun İstisu deyilən ərazisində pusquda duran ermənilər onları qəfil atəşə tutmuş, onula birlikdə yeddi döyüş yoldaşı da şəhid olmuşdur. Onun döyüş yoldaşlarından biri Mikayıl Cəbrayılov idi. Doğulduğu Padar kəndində dəfn edilmişdir.[3] Oxuduğu Padar kənd tam orta məktəbinə və Oğuz şəhərindəki küçələrdən birinə onun adı verilmişdir. |

| | | | | |
|---|---|---|---|---|
| 76. | **Əliyev Bəxtiyar Sədiyar oğlu** | əsgər | | 3 fevral 1972-ci ildə Astara rayonunun Ərçivan qəsəbəsində anadan olub.[4] Könüllü olaraq 7 sentyabr 1992-ci ildə orduya yollanıb. O, 23 mart 1993-cü ildə döyüş tapşırığını yerinə yetirən zaman şəhidlik zirvəsinə ucalıb.[5] |
| 77. | **Əliyev Bəxtiyar Ziyad oğlu** | polis | | 1 may 1968-ci ildə Şuşa rayonunun Xanalılar kəndində doğulmuşdur. 1984-cü il də Xanalılar kənd orta məktəbini bitirmişdir. Sonra isə kalxozda işə başlamışdır. 1988-ci il də ordudan təxris olub doğulduğu kəndə qayıtmışdır. Birinci Qarabağ müharibəsində iştirak etmək üçün Şuşa rayon Daxili İşlər Şöbəsinə müraciət etmiş və Şuşa rayon Polis Şöbəsində işə qəbul olmuşdur. Komandir Fərman Xəlilovun rəhbərliyi altında əməliyyatlarda iştirak etmişdir. 1992-ci il yanvarın 17-də Bəxtiyar Nəbilər kəndinə növbəyə getmişdir. Yanvarın 18-ə keçən gecə Nəbilər kəndi uğrundakı vuruşmada Bəxtiyar Əliyev şəhid olmuşdur. Ondan geriyə qalan bir oğul övladı var idi, o da körpə ikən vəfat etmişdir. |
| 78. | **Əliyev Elbrus Əsgər oğlu** | əsgər | | 17 iyun 1962-ci ildə Ağdaş rayonunun Ağalı kəndində anadan olmuşdur. 1969-cu ildə Nizami adına şəhər orta məktəbin birinci sinfinə getmişdir. 1979-cu ildə həmin məktəbi bitirdikdən sonra "Kommunist" sovxozunda fəhlə işləmişdir. 1982-ci ildə Bakıda 14 saylı Texniki Peşə məktəbinə daxil olur. Bitirdikdən sonra Səngəçal Dəniz Neft-Qaz çıxarma idarəsində Qazmaçı işləyib. Daha sonra rayona qayıdaraq, burada yenidən Texniki Peşə məktəbinə daxil olub və sürücülük sənətinə yiyələnib. 1989-cu ildə ailə həyatı qurub və Dilşad və Elvin adında iki övladı var. Sonradan yenidən Bakıya qayıdaraq Qaradağ rayonunda Neftçi peşəsini davam etdirmişdir. 15 avqust 1992-ci ildə şəhid olmuş, 1992-ci il avqustun 17-si Ağal kənd qəbiristanlığında torpağa tapşırılır. |
| 79. | **Əliyev Elsevər Allahverdi oğlu** | leytenant | | 1 mart 1971-ci ildə Vedi rayonunun Arazdəyən kəndində doğulub. Orta məktəbi elə həmin kənddə bitirib. Daha sonra hərbi xidmətə yollanıb. Hərbi xidmətini Çexoslovakiyada başa vurduqdan sonra Bakıya qayıdır. Həmin illərdə artıq Azərbaycanda Qarabağ müharibəsi başlamışdı. Hərbi xidmətdən leyetenant rütbəsilə qayıdan Elsevər Əliyev 1993-cü ildə könüllü olaraq birbaşa döyüş bölgəsinə yollanır. Leytenant Elsevər Əliyev taqım komandiri kimi Tərtər və Kəlbəcər rayonlarında gedən döyüşlərdə iştirak edib. Döyüşlərdə ağır yaralandıqdan sonra hospitala yerləşdirilib. Hospitalda bir müddət müalicə aldıqdan sonra yenidən cəbhəyə yollanıb. İki il davam edən döyüş yolu 1995-ci il Tərtər istiqamətində gedən döyüşlərdə ağır yaralanması ilə nəticələnir. Yenidən hospitala yerləşdirilən Əliyev Elsevər 1995-ci il dekabr ayının 22-də aldığı yaralardan vəfat edir. Xətai rayonundakı Günəşli qəbiristanlığında dəfn olunub.[6] |

| | | | | |
|---|---|---|---|---|
| 80. | **Əliyev İsmayıl Rüstəm oğlu** | əsgər | | 20 yanvar 1973-cü ildə Astara rayonunun Pensər kəndində anadan olub. O, 9 may 1991-ci ildə cəbhəyə, qızğın döyüşlərin getdiyi əraziyə yollanıb. 19 sentyabr 1992-ci ildə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb.[7] |
| 81. | **Əliyev Kərəm Qədim oğlu** | əsgər | | 1973-cü ildə Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olmuş,[8] orta məktəbi bitirmişdir (1990). Hərbi xidmətə çağırılmışdır (5. avqust 1992). Döyüş yolu Kəlbəcər bölgəsindən keçmişdir. 29 sentyabr 1992-ci ildə Pircahan kəndi uğrunda gedən döyüş zamanı Şəhid olmuşdur. Cərcis Peyğəmbər Ziyarətgahında yerləşən Şəhidlər xiyabanında dəfn olunmuşdur.[9] Əlinəzərli kənd 2 nömrəli orta məktəbi adını daşıyır. |
| 82. | **Əliyev Mirzalı Əliyar oğlu** | əsgər | | 22 may 1961-ci ildə Ağdaş rayonunun Pirəzə kəndində anadan olub. 1992-ci ildə şəhid olmuşdur. Ağdaş rayonu Pirəzə kəndi tam orta məktəbi Mirzalı Əliyevin adını daşıyır.[10] |
| 83. | **Əliyev Natiq Sevindik oğlu** | Polis Baş serjantı | | 20 yanvar 1971-ci il tarixində Ağdərə rayon Sırxavənd kəndində anadan olub. Natiq Rusiyanın Amur vilayətində hərbi xidmət keçib. Vətənə qayıtdıqdan sonra, Qarabağ müharibələri başlanan zaman Sırxavənd batalyonuna qoşulur. 1992-ci il martın 5-də Qazançı kəndinin ermənilərdən təmizlənməsində Natiq döyüşün önündə gedərək ermənilərin bir tankını və bir neçə silahlısını məhv etdi. Cəsur döyüşçü Naxçıvanik, Xramord, Aranzəmin, Pircamal, Ağbulaq kəndlərində şücaət göstərir. Fərrux kəndi uğrunda gedən döyüşlərin birində həmişə ön xətti olan Natiq ağır yaralandı. Hərbi hospitalda bir müddət müalicə olunduqdan sonra yenidən düşmənlə üzbəüz səngərə qayıdır. 1993-cü ilin fevralında Daşbaşı yüksəkliyi uğrunda gedən qanlı savaşda dörd nəfər silahdaşı ilə birlikdə gizli yollarda düşmən qüvvələrinin arxası ilə keçərək onlara sarsıdıcı zərbələr endirirlər. Natiq Daşbaşı yüksəkliyinə birinci qalxaraq Azərbaycan milli bayrağını əlçatmaz mövqeyə taxdı. Göstərdiyi igidliyə görə batalyon taqım komandiri seçildi. 1993-cü ilin mart ayında Natiq könüllü olaraq Ağdərə RPŞ-də işə qəbul olunur. Marquşevan, Lelinavan, Çaylı, Madakis, Çardaxlı, Akop Kamari, Ortakənd, Dəmirli, Mehmanə, Drombon, Qızılqaya, Çıldıran, Külyataq, Çanyataq, Dovşanlı, Ballıqaya, Aterk, Qozlu, Umuddu və bir sıra başqa kəndlərin erməni quldurlarından təmizlənməsində, əsl qəhrəmanlıq göstərdi. Ağdərənin azad edilməsində də Natiqin böyük əməyi olmuşdu. 1994-cü ilin may ayının 6-da düşmən böyük qüvvə ilə Ağdərə rayonunun 3 N-li Savxozuna hücumuna keçmişdi. Döyüş ərzində o öz pulemyotu ilə düşmənin 35 döyüşçüsünü və bir texnikasını məhv etmişdi. Bu faktı girovlar dəyişdiriləndə düşmən tərəf bildirib. O, Ağdərənin Həsənqaya kəndi uğrunda gedən döyüşlərdə şəhid olur. Məzarı Bərdə rayonunun Şəhidlər xiyabanındadır.[11] 30 iyun 2004-cü il tarixində Azərbaycan Respublikasının |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən "İgidliyə görə" medalı ilə təltif edilmişdir. |
| 84. | **Əliyev Rahim Kərimağa oğlu** | əsgər | | 10 oktyabr 1978-ci ildə Astara rayonunun Şiyəkəran kəndində anadan olub.[12] 5 oktyabr 1996-cı ildə orduya yola düşüb. O, 26 dekabr 1998-ci ildə 20 yaşında xidməti borcunu yerinə yetirərkən şəhid olub. |
| 85. | **Əliyev Rauf İsmayıl oğlu** | polis | | 1973-cü il iyunun 25-də anadan olub.[13] Badamdar qəsəbədəki 239 saylı orta məktəbin məzunu olub. Daxili Qoşunların sıralarında sıravi hərbi qulluqçu kimi xidmət edən Rauf, nizam-intizamı və nümunəvi xidməti ilə təkcə komandirlərinin deyil, yoldaşlarının da hörmətini qazana bilib. Sıravi R. Əliyev Ağdərə rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə cəsur hərbi qulluqçu kimi vuruşurdu. O, 1992-ci ilin iyulun 19-da məhz bu rayonun müdafiəsində qəhrəmancasına şəhid oldu. Rauf bəxtinə yazılan ömrünün 19 ilini şərəflə yaşadı və qəhrəmanlığı ilə əbədi ölümsüzlük – şəhidlik qazandı. R. Əliyev Azərbaycan Respublikasının Prezidentinin 19 noyabr 1992-ci il tarixli sərancamına əsasən "Azərbaycan Respublikasının Fəxri Fərmanı" ilə (ölümündən sonra) təltif edilib. |
| 86. | **Əhmədov Daşqın Qonsur oğlu** | əsgər | | 1970-ci il 16 aprelda Sabirabad rayonunun Ulacalı kəndində anadan olmuşdur.1988–1990-cı illərdə hərbi xidmət keçmişdir.[14] Xocalı faciəsindən sonra 21 mart 1992-ci ildə Sabirabad rayon hərbi komissarlığına müraciət edərək könüllü olaraq Qarabağa döyüşə getmişdir. Daşqın Əhmədov Ağdam ətrafında gedən döyüşlərdə özünü cəsur komandir kimi göstərmiş, düşmənin 2 BMP-ni, 26 nəfər canlı qüvvəsini məhv etmişdir. 1992-ci il 4 sentyabrda Ağdamın Pircamal kəndi uğrunda gedən qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olmuşdur.[15] Daşqın Əhmədov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli Sərəncami ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.[16] |
| 84. | **Əhmədov Natiq Vahid oğlu** | əsgər | | 1976-cı ildə Ağdaş rayonunun Kükəl kəndində anadan olub. 1994-cü ildə şəhid olmuşdur. 17 sentyabr 1996-cı il tarixli 124 saylı qərara əsasən Ağdaş rayonu Kükəl kəndi tam orta məktəbi Natiq Əhmədovun adını daşıyır.[17] |
| 88. | **Əhmədov Qılman İsi oğlu** | əsgər | | 24 oktyabr 1975-ci ildə Astara rayonunun Artupa kəndində anadan olub.[18] 1 yanvar 1994-cü ildə orduya çağırılıb. Birbaşa döyüş bölgəsinə yollanıb. 26 aprel 1994-cü ildə şəhidlik zirvəsinə ucalıb. |
| 89. | **Əhmədov Ramin** | əsgər | | 23 may 1981-ci ildə Qasım İsmayılov (indiki Goranboy) rayonunun Faxralı kəndində anadan olmuşdur. 1 sentyabr 1987-ci ildə Faxralı kənd orta məktəbinin birinci sinfinə daxil olmuş və 1998-ci ildə orta məktəbi bitirmişdir. Atası Viktor 14 avqust 1990- |

| | | | | |
|---|---|---|---|---|
| | **Viktor oğlu** | | | cı ildə rəhmətə getmiş, anası və qardaşı ilə birgə yaşamalı olmuşlar. Ona görə orta məktəbi bitirdikdən sonra 1998-ci ilin iyun ayında Rusiyaya qazanc dalınca gedir. Orada 1 il qaldıqdan sonra hərbi xidmətə getmək üçün Azərbaycana qayıdır. 2 iyul 1999-cu ildə Goranboy Rayon Hərbi komisarlığından hərbi xidmətə gedir. Beyləqan rayonunun "N" saylı hərbi hissəsində 2 ay xidmət etdikdən sonra ön xəttə gedərək Haramı düzü deyilən yerdə hərbi xidmətini davam etdirir. 4 may 2000-ci ildə hərbi borcunu yerinə yetirən Ramin, əsgər yoldaşları ilə birlikdə mina partlayışı zamanı şəhid olmuşdur. 5 may 2000-ci ildə doğulduğu Fəxralı kəndində dəfn olunmuşdur. 24 sentyabr 2013-cü ildə Şəhid statusu almışdır. |
| 90. | **Əhmədov Sahib Nəriman oğlu** | əsgər | | 8 dekabr 1953-cü ildə Laçın şəhərində anadan olub. 1970-ci ildə Laçın şəhər 1№-li orta məktəbini bitirib. 1972-ci ilin noyabr ayında Sovet Ordusunda xidmətə çağırılmış, 1974-cü ildə hərbi xidmətini başa vurmuşdur. Uzun müddət Laçın Rayon İstehlak Cəmiyyətində işləyib. Ailəli idi, iki övladi yadigar qalıb. 1990-cı ildə könüllülərdən ibarət Laçın batalyonuna daxil olub, erməni təcavüzkarlarına qarşı döyüşlərdə iştirak edib. 1992-ci ilin may ayında rayonun işğalından sonra Sahib polis batalyonunun tərkibində Laçın rayonunun cənub-şərq kəndləri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1992-ci ilin noyabrına qədər 811 saylı hərbi hissənin tərkibində taqım komandiri olaraq döyüşmüşdür. O Ermənistanla sərhəddin ən qaynar postlarında, xüsusən 31-ci postda xidmət göstərmişdir. 1992-ci ilin dekabrından isə Laçın rayon polis idarəsinin tərkibində yaradılmış polis batolyonuna yazılaraq Murovdağ istiqamətində döyüşmüşdür. 1993-cü ilin ortalarında Laçın rayonunun cənub-şərq kəndləri Güləbird, Səfiyan və Fərəcan kəndlərini erməni işğalçılarından qorumaq üçün yenidən 811 saylı hərbi hissənin tərkibində vuruşmuşdur. 1993-cü il avqust ayının 18-də rayonun Səfiyan, Fərəcan kəndləri uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Lakin onun cəsədini götürmək mümkün olmamışdır. Ailəli idi, İlhamə və Azər adlı övladları var. |
| 91. | **Əjdərov Elşən Əjdər oğlu** | əsgər | | 3 fevral 1973-cü ildə Astara rayonunun Şahağac kəndində anadan olub. Əjdər kişi ilə Elmira ananın ailəsində səkkiz övladdan yeddincisi idi. Özündən böyük iki qardaşı keçmiş sovet ordusunda hərbi xidmət keçmişdilər. Elşən 1990-cı ildə Şahağac kənd 2 saylı tam orta məktəbini bitirib. Orta məktəb illərindən idmanla məşğul olurdu. Arzusu da Bədən Tərbiyə İnstitutunda ali təhsil almaq idi. Bakı şəhərində peşə təhsili alaraq fotoqraf peşəsinə yiyələnib. 7 avqust 1992-ci il tarixdə Astara hərbi komissarlığından elə Astara şəhərindəki hərbi hissəyə yola düşüb. 1993-cü il fevralın 8-də Beyləqana göndərildilər. 9 fevral tarixi ilk dəfə döyüşə girdiyi gün oldu. Beyləqan–Füzuli istiqamətində olan ərazini düşməndən müdafiə edən bu döyüşçülər mərdliklə |

| | | | | |
|---|---|---|---|---|
| | | | | döyüşürdülər. Neçə dəfələrlə döyüş zamanı düşmən mühasirəsinə düşmüşdülər. Döyüş yoldaşlarının çoxu tanıdığı rayon uşaqları idi. Mühasirədə olan 22 nəfərlik dəstəni xilas etməyə nail olmuşdu. Onun bu hərəkətini komandir məzuniyyətlə qiymətləndirmişdi. Son dəfəki döyüşü Xocavənd istiqamətindəki mövqelərin müdafiəsi uğrunda oldu. 1994-cü il yanvar ayının 27-i idi. Ermənilərdən Şişqaya yüksəkliyini azad edən döyüşçülər mövqelərdə durub, arxadan gələcək köməyi gözləyirdilər ki, yenə hücum edib, geri qaçan düşməni torpaqlarımızdan geriyə uzaqlaşdırsınlar. Belə bir məqamda geri çəkilən ermənilər təpədən dırnağadək silahlanmış halda əks hücuma keçdilər. Hər tərəfi bombalar yandırıb–yaxırdı. Elşəngil isə cəmi 24 nəfər idilər. Silahları tükənmiş, yorğun, ac–susuz, yuxusuz, döyüşdən yenicə çıxmış döyüşçülərin kələyini həm də şaxta, qar, yüksəkliyin soyuğu kəsmişdi. Bir tərəfdən də vertolyotlardan tökülən bombaların atəşi qarşısında nə edə bilərdilər ki? Son nəfəslərinə son güllələrinə qədər vuruşan 24 igidin sonu faciə ilə bitdi. Döyüş bitdikdən sonra 24 nəfərdən yalnız 2 nəfərin cəsədi qaytarıldı. 22 nəfər qoçaq, igid döyüşçünün sonu naməlum olaraq qaldı. Nə əsir, nə sağ, nə ölü olmaqları haqqında heç bir məlumat əldə olunmadı. Onlardan heç bir səs–soraq çıxmadı. Birinci Qarabağ müharibəsində 4000-ə yaxın itkin düşənlər siyahısında Elşən Əjdərovun da adı var. Doğulduğu Astara rayonu Şahağac kəndində yeni inşa olunan bulaq kompleksində Birinci Qarabağ müharibəsi şəhidi Elşən Əjdərovun xatirəsi əbədiləşdirilib. Yaşadığı Astara rayonunun Şahağac kəndində şəhidimizin adını əbədiləşdirilməsi üçün plakatı qoyulub. |
| 92. | **Əsədov Davud Mirzəcan oğlu** | əsgər | | 19 noyabr 1966-cı ildə Astara rayonunun Şahağac kəndində anadan olub. 20 aprel 1994-cü ildə cəbhəyə yollanıb. Əvvəlcə Füzuli bölgəsində piyadaqoşun hissələrində atıcı kimi müxtəlif kəndlərin müdafiəsində qəhrəmanlıqla döyüşüb. Daha sonra Tərtərə göndərilib. Başından yaralanır və onu evə buraxırlar. Evdə müalicə olunsada 29 avqust 1994-cü ildə şəhid olur.[19] Ailəlidir 2 oğul övladı var. Doğulduğu kəndin 2 saylı tam orta məktəbi onun adını daşıyır. Doğulduğu Astara rayonu Şahağac kəndində yeni inşa olunan bulaq kompleksində Birinci Qarabağ müharibəsi şəhidi Davud Əsədovun xatirəsi əbədiləşdirilib. Yaşadığı Astara rayonunun Şahağac kəndində şəhidimizin adını əbədiləşdirilməsi üçün plakatı qoyulub. |
| 93. | **Əsədov Əzizağa Mirzəağa oğlu** | əsgər | | 23 dekabr 1973-cü ildə Hacıqabul rayonunda anadan olmuşdur. Hacıqabul rayonu 1 saylı orta məktəbi bitirib.<br><br>Əzizağa Əsədov 1992-ci ildə Şirvan şəhərindən hərbi xidmətə çağırıldı. Azərbaycan Silahlı Qüvvələrinin Milli Ordusunun sıralarına əsgər kimi yollanan Əzizağa Əsədov 1993-cü ilin 2 |

| | | | | |
|---|---|---|---|---|
| | | | | yanvar tarixində Laçın rayonu uğrunda gedən döyüşlərdə mərdliklə döyüşərək şəhid olmuşdur. Hacıqabul şəhərində dəfn olunmuşdur. Subay idi. |
| 94. | **Əsgərov Rakif Əsgər oğlu** | əsgər | | 26 noyabr 1962-ci ildə Astara şəhərində anadan olub.[20] 1993-cü ildə könüllü olaraq cəbhəyə yollanıb. O, Beyləqan, Füzuli, Ağdam rayonlarının neçə–neçə kəndlərinin azad olunmasında, müdafiəsində qəhrəmanlıqlar göstərib. Rakifin son döyüşü 1994-cü ildə yanvarın 8-də Ağdamın Güllücə kəndində olub. |
| 95. | **Əsgərov Rəmzi Əsgər oğlu** | əsgər | | 1967-ci il yanvarın 21-də Laçında anadan olub. Evin üçüncü oğlu idi. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olur. O dövrki qanunlarda əsgərlik yaşı çatan bütün gənclər hərbi xidmətə gördərilirdi. Gənc Rəmzi də ali təhsilini yarımçıq qoyub hərbi xidmətə yollanır. Moskva ətrafındakı hərbi hisələrdən birində qulluq edir. İki illik hərbi xidmətdən sonra yenidən Azərbaycana dönür, ali təhsilini davam etdirir. 1988-ci ilin fevralından başlayan çaxnaşma Qarabağın bütün bölgələri kimi Laçında da özünü göstərdi. Belə bir vəziyyət gənc və inadkar Rəmzini Laçına dönməyə vadar etdi. O, institutun V kursunda oxuyurdu. Təhsilini yarımçıq qoyub Laçına – vətəninin müdafiəsinə yollandı. 1992-ci il mayın 25-də Laçının Güləbird kəndi uğrunda gedən gərgin döyüşlərdə Rəmzi qəhrəmancasına həlak olur.[21] |
| 96. | **Əsgərov Şahlar Firudin oğlu** | əsgər | | 5 yanvar 1962-ci ildə Füzuli rayonunun Yal Pirəhmədli kəndində anadan olmuşdur. Füzuli rayonunun Qarğabazar kəndindəki Pənah Qasımov adlı orta məktəbdə başa vurub. 1983-cü ildə ailə qurandan sonra Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda çilingər işləməyə başlayıb. 1993-cü ilin noyabr ayının 5-də könüllü olaraq "Qaradağ batalyonu"nun tərkibində cəbhəyə yola düşüb. 1993-cü ilin noyabr ayının 17-də Şahlar Əsgərovun xidmət etdiyi batalyon Murovdağa yola düşür. 1994-cü ilin yanvarın 3-də Kəlbəcərin bir kəndi uğrunda döyüşdən qayıdanda Murovdağda batalyonun bir neçə əsgərləri qar uçqununa düşüb həlak olurlar. Şahlar Əsgərovda həmin qar uçqununa düşərək şəhid olur. 1994-cü ildə Qaradağ rayonunda dəfn edilib. Qaradağ rayonu Sahil qəsəbəsində küçələrdən biri Şahlar Əsgərovun adını daşıyır. |
| 97. | **Fərəcov İsak Allahverdi oğlu** | əsgər | | 1 yanvar 1964-cü ildə Sabirabad rayonunda anadan olub. 1994-cü ilin 28 aprelində şəhid olub. İsak Fərəcov Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.[1] |
| 98. | **Hacıyev Asif** | polis | | 1973-cü ildə Şəmkir rayonu Çaparlı kəndində anadan olub. 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz məntəqəsi istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur. 19 noyabr 1992-ci ildə |

| | | | | |
|---|---|---|---|---|
| | **Ələddin oğlu** | | | "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir.[1] Məzarı Bakı şəhərindədir. |
| 99. | **Hacıyev Əli Kamal oğlu** | | | 2 yanvar 1965-ci ildə Ağdam rayonunda anadan olub. 1988-ci il fevralın 22-də Bəxtiyar Quliyev ilə birgə Əsgəran rayonunda şəhid olub. Məzarı uzun müddətdən sonra Ağdam rayonunun işğaldan azad edilmiş Qarağacı qəbiristanlığında tapılıb.[2] |
| 100. | **Hacıyev Namiq Talıb oğlu** | əsgər | | 1967-ci il martın 4-də Lerik rayonunun Tikəband kəndində anadan olmuşdur. 9 may 1994-cü ildə Tərtər istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. |
| 101. | **Haşımov Fərhad Ağasalah oğlu** | əsgər | | 25 yanvar 1959-cu ildə Abşeron rayonunun Digah qəsəbəsində anadan olub. 1966–1976-cı illərdə Digah qəsəbə tam orta məktəbində oxuyub. O, qarmon sinfi üzrə də 5 illik musiqi təhsili alıb. 1978–1980-ci illərdə Ukrayna SSR-in Kiyev şəhərində hərbi xidmətdə olub. 1992-ci ilin may ayının əvvəllərində könüllü olaraq Azərbaycan Ordusu sıralarına yazılıb. Milli Qəhrəman Koroğlu Rəhimovun komandirlik etdiyi dəstədə olmuş, Başkənd, Madagiz, Gülüstan, Buzluq, Çartaz, Erkeç, Mənəşli kəndlərini düşmən işğalından azad edib. 1992-ci il iyul ayının 3-də Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşüb. |
| 102. | **Həmidov Teymur Həzi oğlu** | əsgər | | 31 yanvar 1974-cü ildə Yevlax rayonunun Yuxarı Qarxun kəndində anadan olmuşdur. 1992-ci ilin iyun ayında ordu sıralarına qoşulub. O, cəbhədə olduğu 2 il müddətində Ağdərə rayonunun Çıldıran, Marquşevan, Ağdərə, Tərtər, Füzuli, Ağdam, Qasapet və neçə-neçə kəndimizi ermənilərdən müdafiə etmişdir. Teymur Həmidov 1994-cü ilin aprel ayının 24-də Tərtər ətrafında gedən döyüşlər zamanı şəhid olmuşdur. Yevlax rayonu Şəhidlər Xiyabanında dəfn olunub.[3] |
| 103. | **Həsənov Çərkəz Muxtar oğlu** | gizir | | 21 fevral 1965-ci ildə Qazax rayonunun Musaköy kəndində anadan olmuşdur. 1987-ci ildə ailə qurmuş, iki övladı dünyaya gəlmişdir. Çərkəz Həsənov Gəncədə 5477 saylı (indiki 17072 saylı daxili qoşunlar) hərbi hissənin avtomobil bölüyündə gizir işləmişdir. 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz (Aterk) kəndi uğrunda gedən döyüşlərdə həlak olmuşdur.[4] "Vətən uğrunda" medalı ilə (ölümündən sonra) təltif edilmişdir.[5] |
| 104. | **Həsənov Nail Babulla oğlu** | əsgər | | 20 fevral 1975-ci ildə Astara rayonunun Kijəbə qəsəbəsində anadan olub. 27 aprel 1993-cü ildə hərbi xidmətə çağırılıb. Əvvəlcə 741 saylı hərbi hissənin tərkibində Göytəpədə hərbi təlim keçib. Bir aydan sonra Ağcabədinin Avşar kəndində ilk döyüşlərdə iştirak edib. 1994-cü ildə yanvarın 27-i Füzuli cəbhəsində sonuncu döyüşü olub.[6] Şəhidin |

| | | | | |
|---|---|---|---|---|
| | | | | oxuduğu Astara rayonunun Kijəbə qəsəbə tam orta məktəbinə onun adı verilib. |
| 105. | **Hidayətov Hikmət Məhərrəm oğlu** | əsgər | | 26 sentyabr 1973-cü ildə Astara rayonunun Kakalos kəndində anadan olub.[7] 1992-ci ilin iyun ayında Astara rayon hərbi komissarlığından ordu sıralarına hərbi xidmətə yola salınıb. Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak edən Hikmət 2 aprel 1993-cü ildə Kəlbəcərin işğalından sonra itkin düşüb.[8] |
| 106. | **Hüseynov Fədayət Gülverdi oğlu** | əsgər | | 7 mart 1976-cı ildə Astara rayonunun Şiyəkəran kəndində anadan olub.[9] 1998-ci ildə orduya gedib. Əvvəlcə 6 ay Xızıda xidmət edib. Hərbi təlim və məşqlərə böyük həvəs göstərərək pulemyotu mükəmməl öyrənib. Daha sonra Tərtərdə, ön xətdə, düşmənlə üzbəüz mövqedə Vətənin keşiyini çəkib. O, 2 mart 1999-cu ildə şəhid olub. |
| 107. | **Hüseynov Mövsüm Xudu oğlu** | əsgər | | 1965-ci il yanvarın 13-də Gəncə şəhərində anadan olmuşdur. O, orta təhsilini 5 nömrəli orta məktəbdə almışdır. Mövsüm Hüseynov 1992-ci il noyabrın 18-də Nizami Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Bacarıqlı qumbaraatan idi. Müxtəlif döyüşlərdə düşmənə xeyli tələfat verib, hücumda hər an öndə gedərdi. Hüseynov Mövsüm Xudu oğlu 1993-cü il yanvar ayının 26-da Fərrux yüksəkliyinin alınması uğrunda gedən ağır döyüşlərin birində şəhid olmuşdur. Mövsüm Hüseynov Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur.[10] |
| 108. | **Xudiyev Əkrəm Məhiyəddin oğlu** | əsgər | | 1965-ci ildə Zəngilan rayonunda anadan olub. 1991-ci ildə hərbi xidmətə yollanan və Zəngilan rayonu uğrunda gedən göyüşlərə qatılan Əkrəm Xudiyev 1993-cü ildə elə Zəngilan rayonunu uğrunda gedən döyüşlərdə şəhid olub. |
| 109. | **İbrahimov Azad Səhhətulla oğlu** | əsgər | | 18 sentyabr 1974-cü ildə Astara rayonunun Şuvi kəndində anadan olub.[1] 1992-ci il sentyabrın 25-də ordu sıralarına yollanıb. Iki ay Hacıqabulda hərbi təlim keçib. Daha sonra isə döyüş bölgəsinə göndərilib. Azadın əsas döyüşdüyü yer Ağdərə bölgəsi olub. Son döyüşü 1993-cü ildə sentyabrın 9-u Sırxavənddə olub. |
| 110. | **İbrahimov İsgəndər Qaraş oğlu** | əsgər | | 1975-ci il yanvarın 15-də Ağdam rayon Qaradağlı kəndində anadan olub. 1982-ci ildə Ağdam rayon Qaradağlı kənd tam orta maktəbinin 1-ci sinfinə daxil olub. 1992-ci ildə orta məktəbi bitirib. 9 aprel 1993-cü ildə hərbi xidmətə gedib. Hərbi xidmətini ön cəbhədə keçirib. İsgəndər Füzuli və Füzulinin kəndləri uğrunda gedən döyüşlərdə iştirak edib daha sonra Ağdamın Salahlı, Şıxlar, Suma, Güllücə kəndləri uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. İsgəndərin sonuncu düyüşü Cəbrayıl rayonun Cocuqmərcanlı kəndində olmuşdur. 1994-cü il sentyabrın 11-də Şəhid olmuşdur. |

| | | | | |
|---|---|---|---|---|
| 111. | **İslamov Tahir Ağakişi oğlu** | baş leytenant | | 2 sentyabr 1969-cu ildə Kürdəmir rayonunun Qağacılı kəndində anadan olmuşdur. 1986-cı ildə orta məktəbi bitirib və Frunze adına Odessa Ali Hərbi Artilleriya məktəbinin komandirlər hazırlayan şöbəsinə daxil olmuşdur. 1990-cı ildə hərbi məktəbi bitirib, Zaqafqaziya Hərbi Dairəsinə təyinatı verilsə də, Salyan kazarmasında xidmətə başlamış, kamendat saatına nəzarət etmişdir. Yaxsı islədiyinə görə Badamdardakı Moto atıcı alaya qərargah rəisi göndərilmişdir. 20 iyun 1990-cı ildə ona leytenant rütbəsi verilmişdir. N saylı hərbi hissədə xidmətini davam etdirmişdir. Bakıda 903 və 702 nömrəli hərbi hissələrin təşkilində fəal iştirak etmişdir. 6 may 1992-ci ildə Füzuli uğrunda gedən döyüşlərdə qəhəmancasına həlak olmuşdur. Doğma kəndində dəfn olunmuşdur. 16 sentyabr 1994-cü ildə ölümündən sonra Prezidentin Sərəncamı ilə "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib.[2] Məzun olduğu Dəyirmanlı kənd orta məktəbinə onun adı verilib.[3] |
| 112. | **Kazımov Azay Sada oğlu** | əsgər | | 1973-cü ildə Göyçə mahalının Zod kəndində "Zərgərlilər" tayfasında anadan olmuşdur. 1988-ci ildə Göyçədən deporyasiya olunduqdan sonra Xanlar rayonunda məskunlaşmışdır. Hərbi xidmətə Naxçıvanın Sədərək rayonuna göndərilmişdir. 1993-cü ilin ortalarında erməni daşnaklarından Sədərəyin qorunmasında xüsusi fəallıq göstərmiş və taqım komandiri təyin edilmişdir. Bir müddətdən sonra Bakı şəhərinə oradan isə Goranboy cəbhəsinə göndərilmişdir. Ağdamın ağır günlərində döyüşçü yoldaşları ilə birlikdə Ağdam cəbhəsinə köməyə getmiş və bir neçə qanlı döyüşlərin iştirakçısı olmuşdur. Düşmənin tankını heyiti ilə birlikdə məhv etdiyinə görə pul mükafatına layiq görülmüşdür. Azay Ağdamdan Füzuli cəbhəsinə göndərilir. Bir gün Füzulidə 28 erməni hərbçisi olan avtobusu atəşə tutmuş və maşında olan hərbi sursatı komandanlığa təhvil vermişdir. 15 yanvar 1994-cü ildə Füzuli rayonunun Qaraxanbəyli kəndində şəhid oldu. Ölümündən sonra gizir Azay Sada oğlu Kazımov Azərbaycan Respublikasının prezidentinin 9 oktyabr 1994-cü il tarixli əmri ilə "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuşdur. Göygöl rayonunda Hacıkəndə gedən mərkəzi küçə Azay Kazımovun adını daşıyır. |
| 113. | **Kələntərov Sahib Hüccət oğlu** | əsgər | | 15 fevral 1973-cü ildə Astara rayonunun Ərçivan qəsəbəsində dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı ilk dəfə Ağdamda, sonra isə Tərtərdə düşmənlə üzləşib. Əsas döyüşdüyü yer isə Ağdərə bölgəsi olub. O, 30 iyul 1992-ci ildə Astara rayonunun Ərçivan qəsəbəsində torpağa tapşırılıb.[1] |
| 114. | **Kərimov Eyvaz Əzizağa oğlu** | əsgər | | 10 dekabr 1975-ci ildə Biləsuvar rayonu Amankənd kəndində anadan olub. 1994-cü il aprel ayının 27-də Ağdamın Güllücə kəndində qəhrəmanlıqla şəhid olmuşdur. Amankənd kənd tam orta məktəbi Eyvaz Kərimov adını daşıyır. |

| | | | | |
|---|---|---|---|---|
| 115. | **Kərimov Heydər Bəybala oğlu** | polis | | 13 oktyabr 1973-cü ildə Sumqayıtda doğulmuşdur. 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz məntəqəsi istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur. 19 noyabr 1992-ci il tarixdə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir.[2] Məzarı Bakı şəhərindədir. |
| 116. | **Kərimov Natiq Məmməd oğlu** | əsgər | | 23 noyabr 1975-ci ildə Astara rayonunun Ərçivan qəsəbəsində anadan olub.[3] 22 aprel 1994-cü ildə hərbi xidmətə çağırılıb. Əvvəlcə Hacıqabulda, daha sonra Qusarda hərbi təlim keçərək Balakən rayonunda yol patrulu kimi fəaliyyətə başlayıb. 22 avqust 1994-cü ildə Birinci Qarabağ müharibəsi zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb. Şəhidin oxuduğu Astara rayonunun Ərçivan qəsəbə 3 saylı tam orta məktəbinə onun adı verilib. |
| 117. | **Qafarov Xanlar İsbət oğlu** | əsgər | | 1973-cü ildə Biləsuvar rayonu, İsmətli kəndində anadan olub. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 10 aprel 1993-cü ildə şəhid olub. Qəbri Biləsuvar rayonu, İsmətli kəndindədir. İsmətli kənd tam orta məktəbi Xanlar Qafarov adını daşıyır. |
| 118. | **Qarayev Məhəmməd Ağababa oğlu** | əsgər | | 1973-cü ildə Masallı rayonunun Sığıncaq kəndibdə anadan olub. 18 yaşı tamam olanda xidmətə çağırılır və Lənkəran batolyonunda Selli, Fərrux, Qaralar, Qurançı, Şıxavənd kəndləri, Laçın kəndində döyüşlərdə iştirak edib. Qubadlı-Laçın yolunun əldə saxlanılmasında hünər göstərir. 30 sentyabr 1992-ci il onun son döyüşü olub.[1] Adı Sığıncaq kənd tam orta məktəbinə verilmişdir. |
| 119. | **Qasımov Abbas Talıb oğlu** | əsgər | | 24 yanvar 1970-ci ildə Samux rayonunun Nəbiağalı qəsəbəsində doğulmuşdur. Atası Talıb Göyçə mahalının Daşkənd kəndindəndir[2]. Abbas orta məktəbi bitirdikdən sonra Rusiyanın Kamensk şəhərində hərbi xidmətdə olub[3]. Xanlar rayon Hərbi Komisarlığı tərəfindən 3 yanvar 1992-ci ildə Milli Orduya göndərilmiş, 701-ci hərbi hissənin avtomatçısı olmuşdur[4]. Abbas Qasımov ailəsinin narazılığı olmasına baxmayaraq könüllü olaraq Qarabağ uğrunda gedən döyüşlərə qoşulmuşdur. Yoldaşları arasında "Snayper Abbas" deyə çağırılırmışdır. Sərrast atıcı və minaları təhlükəsizləşdirən hərbçi idi[2]. 5 iyul 1992-ci ildə Ağdərə rayonunda gedən qızğın döyüşdə ayağından yaralanmasına baxmayaraq geri çəkilməmiş və son damla qanına qədər düşmənlə üz-üzə döyüşmüş və qəhrəmancasına şəhid olmuşdur. Abbas Qasımov Samux rayonunun Nəbiağalı qəsəbəsində dəfn edilmişdir. O, Samux rayonunun ilk şəhididir[2]. Gülüstanın alınmasında, Ağdərənin Talış, Qırmızıkənd, Maqadis kəndlərində gedən döyüşlərdə Abbas xüsusən fəallıq göstərmişdir[5]. 22 iyul 1992-ci il tarixli "Yeni Samux" qəzetində və "Samux şəhidləri" adı altında kitabda |

| | | | | |
|---|---|---|---|---|
| | | | | "snayper" Abbasın döyüş yolu haqqında geniş məlumat verilmişdir[6]. |
| 120. | **Qasımov Eldəniz Şahbaz oğlu** | əsgər | | 26 mart 1973-cü ildə Gədəbəy rayonunun Slavyanka kəndində anadan olmuşdur. 1988-ci ildə Slavyanka kənd orta məktəbinin 8-ci sinfini bitirmişdir. 1988-ci ildən 1991-ci ilədək Gədəbəy rayonu peşə məktəbində oxumuş, geniş profilli traktorçu peşəsi üzrə tam kursu bitirmişdir.[7]<br><br>1991-ci ildə Gədəbəy RHK tərəfindən Milli ordu sıralarına çağrılmışdır. Əvvəlcə Bakı şəhərində qulluq etmiş, sonra isə könüllü olaraq Gədəbəy bölgəsinə getmişdir. 18 iyun 1992-ci ildə Gədəbəy rayonunda gedən döyüşlərdə həlak olmuş, Slavyanka kəndində dəfn edilmişdir.[8] |
| 121. | **Qədimov Elvar Yengibar oğlu** | əsgər | | 15 fevral 1974-cü ildə anadan olmuşdur. 1993-cü ildə Hacıqabul rayonundan hərbi xidmətə çağırıldı. Azərbaycan Silahlı Qüvvələrinin Milli Ordusunun sıralarına əsgər kimi yollanan Elvar Qədimov 10 fevral 1994-cü ildə Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə mərdliklə döyüşərək şəhid olmuşdur. Hacıqabul rayonunun Atbulaq kəndində dəfn olunmuşdur. Subay idi. |
| 122. | **Qəhrəmanov Faiq Ail oğlu** | əsgər | | 24 noyabr 1973-cü ildə Astara rayonunun Maşxan kəndində dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı ilk döyüşü Ağdamda olub, daha sonra isə Ağdərəyə göndərilib. O, 30 iyul 1992-ci ildə şəhidlik zirvəsinə ucalıb.[9] |
| 123. | **Quliyev Ayaz Ağahüseyn oğlu** | əsgər | | 1 may 1967-ci ildə Şamaxı rayonunun Çəyirli kəndində anadan olmuşdur. Hacıqabul rayonunda ailə həyatı qurmuşdur. Ayaz Quliyev Hacıqabulda tikinti idarəsində işləmişdir. 15 iyul 1993-cü ildə Hacıqabul rayonundan hərbi xidmətə çağırıldı. Azərbaycan Silahlı Qüvvələrinin Milli Ordusunun sıralarına əsgər kimi yollanan Ayaz Quliyev Ağdamın Qərvənd və Şelli kəndlərində döyüşlərdə iştirak etmişdir. 31 avqust 1993-cü ildə Ağdam rayonu uğrunda gedən döyüşlərdə mərdliklə döyüşərək şəhid olmuşdur. Qobustan rayonunda dəfn olunmuşdur. Ailəli idi. 2 Övladı var. |
| 124. | **Quliyev Bəxtiyar Zahid oğlu** | | | 1959-cu ildə Ağdam rayonunda anadan olub. 1988-ci il fevralın 22-də Əli Hacıyev ilə birgə Əsgəran rayonunda şəhid olub. |
| 125. | **Quliyev Seyran Əliş oğlu** | əsgər | | 24 yanvar 1964-cü ildə Astara şəhərində anadan olub.[10] 1993-cü ildə ərizə yazıb rayon hərbi komissarlığına təqdim etdikdən sonra könüllü olaraq cəbhəyə yola düşüb. O, Füzuli cəbhəsində vuruşub. 2 fevral 1994-cü ildə şəhidlik zirvəsinə ucalıb. |
| 126. | **Qurban əliyev** | əsgər | | 1 avqust 1973-cü ildə Xaçmaz rayonu Üçgünqışlaq kəndində anadan olub. 1980-ci ildə birinci sinifə daxil olmuşdur. 1990-cı |

| | | | | |
|---|---|---|---|---|
| | **Sadıq Arif oğlu** | | | ildə məktəbi bitirmişdir. 1991-ci il may ayının 25-də hərbi xidmətə çağırılmışdır. Həmin ildə Əlibayramlı şəhərində komandirlik kursunu bitirmiş və könüllü olaraq cəbhəyə getmişdir. O, Ağdam rayonu Papravənd kəndi uğrunda gedən döyüşlərdə fədakarlıq göstərmiş, 1993-cü il aprel ayının 19-u ermənilərə qarşı gedən döyüşdə ağır yaralanmış, Aprel ayının 20-si şəhidlik zirvəsinə ucalmışdır. Şəhidin cənazəsi boya-başa çatdığı Üçgünqışlaq kənd qəbirstanlığında torpağa tapşırıldı. 1996-cı ildə Xaçmaz rayon İcra hakimiyyətinin qərarı ilə Üçgünqışlaq kənd orta məktəbinə, Şəhid Sadıq Qurbanəliyevin adı verilmişdir. 2001-ci ildə məktəbin həyətində heykəli ucaldılmışdır.[11] |
| 127. | **Qurbanov Sarvan Qurban oğlu** | əsgər | | 30 avqust 1975-ci ildə Astara rayonunun Asxanakəran kəndində anadan olub.[12] 23 oktyabr 1993-cü ildə könüllü olaraq ordu sıralarına yazılıb. Əvvəlcə Güzdəkdə hərbi təlim keçib. Daha sonra Füzuli–Cəbrayıl istiqamətində gedən döyüşlərdə vuruşub. 26 yanvar 1994-cü ildə Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşlərdə qəhramancasına şəhid olub. Şəhidimizin təhsil aldığı Astara rayonu Motalayataq kənd tam orta məktəbinə onun adı verilib. |
| 128. | **Qurbanov Şahin Xalıqverdi oğlu** | əsgər | | 8 mart 1972-ci ildə Göyçə mahalının Əzizli kəndində anadan olmuşdur. Bakı ŞHK-ndan orduya çağırılmışdır. Sıravi əsgər Almaniya Respublikasında xidmət etmişdir. Milli Orduya könüllü getmişdir. Şahin Qurbanov 1994-cü ildə Ağdərə rayonunda döyüş zamanı itkin düşmüşdür.[13][14] |
| 129. | **Mayılov Qarabala Ağabala oğlu** | polis | | 16.07.1973-cü ildə Salyan rayonunun Kürsəngi kəndində doğulmuşdur. 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. 19 noyabr 1992-ci il tarixdə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir. İgid döyüşçünün məzarı Bakı şəhərindədir.[1] Adı Kürsəngi kənd tam orta məktəbinə verilmişdir. |
| 130. | **Mehdiyev Münasib Namaz oğlu** | polis | | 23.08.1975-ci ildə Samux rayonu Qovlarsarı kəndində anadan olub[2] 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz məntəqəsi istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur. 19 noyabr 1992-ci il tarixdə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir. İgid döyüşçünün məzarı Bakı şəhərindədir[3] |
| 131. | **Məcidov İlqar İzayəddin oğlu** | əsgər | | 1971-ci il fevralın 10-da Bakı şəhərinin Pirallahı rayonunda anadan olub. 1978–1986-cı illərdə N. S. Teymurov adına 231 saylı Gürgən qəsəbə tam orta məktəbində təhsil alıb. Daha sonra 60 saylı texniki peşə məktəbində "Radiotexnika" ixtisasına yiyələnib. "28 May" neft-qaz çıxarma idarəsində çalışırdı. Subay idi. İlqar Məcidov Çita şəhərində hərbi kurs keçib. 1989–1991-ci illərdə Monqolustanda həqiqi hərbi |

| | | | | |
|---|---|---|---|---|
| | | | | xidmətdə olub. İlqar Məcidov 1992-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarına cəlb olunub və Qarabağ müharibəsində iştirak edib. Mahir ovçu olan İlqar Məcidov qısa müddət ərzində döyüşlərdə fərqlənməyi bacarır. Onun yüksək atıcılıq qabiliyyəti var idi. İlqar Məcidov 1992-ci il sentyabrın 7-də Füzuli rayonunun Qacar kəndi istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Pirallahı rayonunun Gürgən qəsəbəsində torpağa tapşırılıb. Gürgən qəsəbəsinin ilk şəhididir. Ölümündən sonra Gürgən qəsəbəsinin bir küçəsinə adı verilib. |
| 132. | **Məcnunov Xəqani Vaqif oğlu** | əsgər | | 1974-cü ildə Laçın rayonunun Oğuldərə kəndində anadan olub. 1981-ci ildə Oğuldərə kənd orta məktəbinin I sinfinə gedib, 1991-ci ildə həmin məktəbi qurtarıb. 1992-ci ildə milli ordumuzun tərkibində bir çox döyüşlərdə iştirak edib. Xidmət etdiyi batalyon dağıldığına görə 1993-cü ilin oktyabrında evə qayıdıb. 1993-cü il dekabr ayının 24-də məskunlaşdıqları Qəbələ rayonundan çıxıb Şəki rayonunun Baş Göynük kəndinin ərazisində məskunlaşan əmisi evinə gedib. 28 dekabr 1993-cü ildə oradan döyüşə yollanıb və həmin gün Ağdam rayonunun Salahlı Kəngərlisi istiqamətində gedən döyüşdə əsir düşüb.[4] |
| 133. | **Məhərrəmov Ceyhun Məhərrəm oğlu** | əsgər | | 1973-cü il oktyabrın 28 Biləsuvar rayonu Xırmandalı (Biləsuvar) kəndində anadan olmuşdur. Orta təhsilini böyüyüb boya-başa çatdığı Xırmandalı kənd orta məktəbində alıb. 24 iyun 1992-ci ildə Zəngilan rayonunun Qazançı kəndi uğrunda gedən qanlı döyüş Ceyhunun son döyüşü oldu.[5][6] Xırmandalı (Biləsuvar) kənd tam orta məktəbi Ceyhun Məhərrəmov adını daşıyır. |
| 134. | **Məhərrəmov Elçin Əhməd oğlu** | əsgər | | 1969-cu ildə Hacılar kəndində dünyaya göz açmışdır. Anası Elmira Məhərrəmova Sadınlar kəndindən olduğundan Elçin lap kiçik yaşlarından Sadınlarda nənəsigildə yaşamışdır. Atası Əhməd kişi kolxozda fermada çalışırdı. Anası Elmira evdar qadın idi. 1984-cü ildə Sadınlar kənd səkkizillik məktəbini bitirib, Hacılar kənd orta məktəbində təhsilini davam etdirmişdir. Sonra Bakı Sənaye Pedaqoji Texnikumuna daxil olmuşdur. İxtisası üzrə işləməyə macal tapmadı, vətənin müdafiəsinə getdi. 1993-cü ildə Tərtər uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak oldu. Subay idi. Məzarı Ağcabədi Şəhidlər xiyabanındadır.[7] |
| 135. | **Məhərrəmov Qəmbər Əmir oğlu** | əsgər | | 22 oktyabr 1968-ci ildə Yevlax rayonununda anadan olmuşdur. 4 qardaşın kiçiyi olan Qəmbər Məhərrəmov 1992-ci ildə Şuşa ətrafındakı kəndlərin müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib. Qəmbər Məhərrəmov 1990-cı ilin iyun ayında ordu sıralarına qoşulub. O, cəbhədə olduğu 2 il müddətində Kosalar, Kərkicahan, Ağdərə rayonu və neçə-neçə kəndimizi ermənilərdən müdafiə etmişdir. Qəmbər Məhərrəmov 1992-ci ilin aprel ayında Ağdərə ətrafında gedən döyüşlər zamanı şəhid olmuşdur.[8] Qəmbər Məhərrəmov Yevlax rayonu Şəhidlər Xiyabanında dəfn olunub. Bir vaxtlar oxuduğu |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Yevlax şəhər 4 saylı orta məktəb şəhid Qəmbər Məhərrəmovun adını daşıyır. |
| 136. | **Məlikov Elbrus Kamil oğlu** | əsgər | | 9 may 1976-cı ildə Astara şəhərində anadan olub. 20 may 1994-cü ildə orduya çağırılıb. Ağdam, Tərtər, Goranboy istiqamətində şərəfli döyüş yolu keçib. 6 sentyabr 1997-ci ildə şəhidlik zirvəsinə ucalıb.[9] |
| 137. | **Məmmədov Bəyalı İlyas oğlu** | əsgər | | 1972-ci ildə Masallı rayonu Böyük Xocavar kəndində anadan olub. Ağdərə uğrunda gedən döyüşlərdə iştirak edib. 1992-ci il avqustun 13-də Ağdərənin Metişen kəndinin müdafiəsi uğrunda gedən döyüşlərdə həlak olub.[10] 1994 ildən Böyük Xocavar kənd tam orta məktəbi Bəyalı Məmmədov adını daşıyır. |
| 138. | **Məmmədov Bəylər Eldar oğlu** | əsgər | | Məmmədov Bəylər Eldar oğlu 1971-ci il martın 13-də Göyçə mahalının Ağkilsə kəndində anadan olub. 1988-ci ilin dekabrında erməni təcavüzü nəticəsində elindən–obasından didərgin düşüb, Daşkəsən rayonunun Bayan kəndində məskunlaşmışdır. 1992-ci ilin aprel ayının 1-də Daşkəsən RHK-dan könüllü olaraq Milli Ordu sıralarına yollanıb. 1993-cü il fevralın 18-də Qarabağda Ağdərə rayonunun Aterk kəndi uğrunda gedən döyüşlərdə şəhid olub.[11] Gəncə şəhərindəki şəhidlər xiyabanında dəfn olunub. Ölümündən sonra 9 oktyabr 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən Məmmədov Bəylər Eldar oğlu "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.[12] |
| 139. | **Məmmədov Dəyanət Cahangir oğlu** | polis | | 20.7.1973-cü ildə Goranboyda anadan olmuşdur. 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz məntəqəsi istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur.[13] Şəhidlər Xiyabanında dəfn olunmuşdur. 19 noyabr 1992-ci ildə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir.[14] |
| 140. | **Məmmədov Elşən Hacıağa oğlu** | əsgər | | 3 sentyabr 1975-ci ildə Astara rayonunun Siyətük kəndində anadan olub.[15] O, dörd ay əsgərlikdə, bir ay isə hərbi təlimlərdə olduqdan sonra  Füzuli bölgəsinə göndərilib. Füzulinin Alxanlı, Aybasanlı, Seyidmahmudlu və digər kəndləri uğrunda gedən qanlı döyüşlərin iştirakçısı olub. 10 fevral 1994-cü il tarixdə Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. |
| 141. | **Məmmədov Eylaz Əli oğlu** | əsgər | | 1968-ci il martın 27-də Sumqayıt şəhərində anadan olub.[16] 1975–1985-ci illərdə orta təhsil alaraq, 28 nömrəli orta məktəbi bitirib.[17] Hərbi xidmətini Sovet Ordusunun tərkibində Yakutiyada keçib.[17] 1989-cu ildə sənədlərini Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə verir və qəbul olaraq, orada ali təhsil almağa başlayır.[17] Ölkədə baş verən hadisələrə biganə qala bilməyib, azadlıq hərəkatına qoşulur. Xocalı faciəsi baş verdikdən sonra isə, 3-cü |

| | | | | |
|---|---|---|---|---|
| | | | | kursda[18] oxuyan Eylaz, təhsilini yarımçıq qoyaraq, "Ana, mən artıq dözə bilmirəm" deyirək, könüllülər dəstəsinin tərkibində döyüşə gedir.[17] Döyüş yolu Goranboydan başlayır. Sonra Ağdam, Ağdərə uğrunda gedən döyüşlərdə iştirak edir. Tərtər rayonunda bir sıra hərbi əməliyyatlarda – döyüş və kəşfiyyat əməliyyatında fəal iştirak ermişdir.[17] Goranboy döyüş bölgəsində dəfələrlə düşmənlə üz-üzə gəlmiş, bir sıra yaşayış məntəqələrinin azad edilməsində fərqlənmişdir.[17] Eylaz Məmmədov 1992-ci ilin iyun ayının 21-də Suqovuşan uğrunda döyüşündə ağır yaralanmış[17] və qəhrəmancasına şəhid olmuşdur.[18] O, ermənilərlə qeyri-bərabər döyüşdə düşmənlər tərəfindən vəhşicəsinə öldürülür. Eylazın ölümü ilə ürəyi soyumayan düşmənlər onun meyidini parçalayaraq, tanınmaz hala salırlar. Düz 47 günlük axtarışdan sonra onun cəsədinin bir hissəsini götürmək mümkün olur və cənazəsi avqustun 7-də torpağa tapşırılır. Məzarı Sumqayıt Şəhidlər Xiyabanındadır.[17] Subay idi.[17] Karate üzrə idman ustası idi. |
| 142. | **Məmmədov Rafiq Sahibulla oğlu** | əsgər | | 23 sentyabr 1970-ci ildə Astara şəhərində anadan olub.[19] O, könüllü olaraq 1991-ci ilin sentyabr ayında cəbhəyə yola düşüb. Ağdərənin bir sıra yaşayış məntəqəsinin azad edilməsində və müdafiəsində igidliklə döyüşüb. Daha sonra Ağdama yola düşüb. 1994-cü ildə yanvarın 8-i Kəngərli kəndində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. |
| 143. | **Məmmədov Rasif Salman oğlu** | əsgər | | 30 noyabr 1967-ci ildə Xocalıda dünyaya göz açmışdır. Qarabağ müharibəsi illərində könüllü olaraq Milli Ordu sıralarına yazılmışdır. 26 fevral 1992-ci ildə Xocalı soyqırımı zamanı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Ağdam rayonunun Uzundərə kəndində torpağa tapşırılmışdır. Azərbaycan Prezidentinin Sərəncamına əsasən Rasif Məmmədov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilmişdir.[20] |
| 144. | **Məmmədov Rəşid Cabbar oğlu** | polis | | 1973-cü ildə Quqark rayonunun Hallavar (Pəmbək) kəndində anadan olmuşdur. 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz məntəqəsi istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur. Şəhidlər Xiyabanında dəfn olunmuşdur. 19 noyabr 1992-ci ildə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir.[21][22] |
| 145. | **Mənsimov Adil İliç oğlu** | əsgər | | 17 mart 1972-ci ildə Qafan rayonunun Qovşud kəndində anadan olmuşdur. 1 sentyabr 1992-ci ildə Abşeron rayon Hərbi Komisarlığı tərəfindən hərbi xidmətə çağrılmış və Qarabağ uğrunda gedən döyüşlərin iştirakçısı olmuşdur. Sıravi əsgər Adil Mənsimov 810-cu hərbi hissənin avtomatçısı idi. 10 dekabr 1992-ci ildə Qubadlı rayonunun Seytaz kəndində gedən döyüşlər zamanı həlak olmuşdur. Saray qəsəbəsində dəfn |

| | | | | |
|---|---|---|---|---|
| | | | | olunub. Ölümündən sonra 16 sentyabr 1994-cü ildə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib[23]. Adına küçə var. |
| 146. | **Mirzəyev Rauf Hidayət oğlu** | əsgər | | 6 iyun 1971-ci ildə Astara rayonunun Şahağac kəndində anadan olub. 30 iyun 1993-cü ildə könüllülər sırasınada Milli Orduya daxil oldu. Raufu kəşfiyyatçılar bölüyünə yazdılar. İlk döyüşü Ağdamda oldu. Sonra isə Cəbrayılda sonuncu döyüşü oldu. 23 oktyabr 1993-cü ildə şəhid olur. Şəhidin oxuduğu Astara rayonunun Şahağac kənd 1 saylı tam orta məktəbinə onun adı verilmişdi. Doğulduğu Astara rayonu Şahağac kəndində yeni inşa olunan bulaq kompleksində Birinci Qarabağ müharibəsi şəhidi Rauf Mirzəyevin xatirəsi əbədiləşdirilib. Yaşadığı Astara rayonunun Şahağac kəndində şəhidimizin adını əbədiləşdirilməsi üçün plakatı qoyulub. |
| 147. | **Muradov Sadiq Məmməd oğlu** | polis | | 1972-ci ildə Ağdaş rayon Ağzıbir kəndində anadan olmuşdur. 1987-ci ildə kənddəki orta məktəbi qurtarıb, sonra Ağdaş Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. Texnikumda oxuyarkən hərbi borcunu ödəmək üçün milli ordunun tərkibində Qarabağa döyüşə yola düşmüşdür. 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz məntəqəsi istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur. Subay idi. Sadiqin 18 yaşı vardı. Sıravi Sadiq Muradov 19 noyabr 1992-ci il tarixdə respublikamızın suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir. İgid döyüşçünün məzarı Bakı şəhərindədir. |
| 148. | **Nadirov Aslan** | əsgər, tibb işçisi | | 1968-ci ildə Ağsu rayonunun Gəgəli kəndində anadan olmuşdur. Ağsu şəhər 1 saylı orta məktəbin məzunudur. 1990-cı illərdən hərbi tibb işçisi kimi könüllü Qarabağ müharibələrində iştirak etmişdir. 29 mart 1992-ci ildə Şuşa şəhərində şəhid olmuşdur. Ağsu şəhər 1 saylı orta məktəb Aslan Nadirovun adını daşıyır. |
| 149. | **Nəcəfov İbadət Nəcəf oğlu** | əsgər | | 1972-ci il yanvarın 2-də Laçın rayonunun Oğuldərə kəndində anadan olub. 1979-cu ildə Oğuldərə kənd orta məktəbinin I sinfinə gedib, 1989-cu ildə həmin məktəbi qurtarıb. 1990-cı ildə hərbi xidmətə çağırılıb. Əvvəlcə Şəmkir rayonunun Leninkənd kəndində yerləşən hərbi hissədə olub. Bir aydan sonra Şınıx bölgəsinə, Qaravəllər kəndinə göndərilib. 1992-ci ilin əvvəlində ordudan tərxis olunub. İki ay evdə qaldıqdan sonra könüllü olaraq milli orduya yazılıb. 811-ci hərbi hissənin plomyotçusu və kəşfiyyatçısı olub. Hələ itkin düşməmişdən qabaq Azərbaycan ordusuna əsir düşən erməni kəşfiyyatçısının cibindən üzərində başına qoyulmuş pulun məbləği yazılı İbadətin şəkli çıxmışdır. 17.09.1992-ci ildə İbadətin sonuncu döyüşü Yığın Seyidləri uğrunda gedən döyüş olub. Düşmənlə qarşı-qarşıya |

| | | | | |
|---|---|---|---|---|
| | | | | gələn İbadət hər iki qıçından güllə yarası alıb. Döyüş bölgəsini tərk edə bilməyib və əsir düşüb. |
| 150. | **Nəsirov Fuad Məhərrəm oğlu** | əsgər | | 29 mart 1971-ci ildə Xocavənd rayonunun Muğanlı kəndində anadan olmuşdur. Muğanlı kənd səkkizillik məktəbini bitirən Fuad orta təhsilini Kuropatkin kənd orta məktəbində başa vurmuşdur. 1988-ci ildə Fuad Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olur. 1993-cü ildə institutu bitirib həmin ilin 1 iyulunda könüllü olaraq Milli Ordu sıralarına yazılmışdır. 30 yanvar 1994-cü ildə Fuad Ağdərə istiqamətində gedən döyüşlərdə "PK" markalı pulemyotla silahlanaraq vuruşmuşdur. "Qlobus" deyilən ərazidə bir neçə gün davam edən döyüşlərdə düşmənin xeyli hərbi texnikası, yetmişdən çox əsgər və zabiti məhv edilmişdir. Fevral ayında gedən döyüşlərdə Fuadın xidmət etdiyi rota fərqlənmişdir. 1994-cü ilin 21 aprelində səhər saatlarında düşmən qoşununun ehtiyat qüvvəsini öyrənmək tapşırığını yerinə yetirib geriyə qayıdarkən pusquda dayanmış ermənilərlə səkkiz nəfər arasında qeyri-bərabər döyüş başlandı. Bu döyüşdə kəşfiyyat dəstəsinin yeddi üzvü, o cümlədən, Fuad Nəsirov şəhid oldu. Subay idi. Göyçay Şəhidlər Xiyabanında dəfn edilmişdir. |
| 151. | **Nuriyev Başir Nuru oğlu** | əsgər | | 5 iyun 1973-cü ildə Masallı rayonunun Binə Xocavar kəndində anadan olub. 1988-ci ildə kənd natamam orta məktəbini bitirdikdən sonra təhsilini Göytəpə texniki-peşə məktəbində davam etdirib, traktorçu-sürücü peşəsinə yiyələnib. O, 1991-ci ilin axırlarında hərbi xidmətə çağırılıb. Gəncə şəhərindəki "N" saylı hərbi hissədə bir neçə ay təlim keçdikdən sonra Başirgilin batalyonu Tərtər şəhərinə gətirilib. B. Nuriyev Tərtər, Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib, Sərsəng su anbarının, Çıldıranın, Kasapet yüksəkliyinin, Drambonun, Canyataq, Gülyataq və Sırxavəndin alınmasında böyük fədakarlıq göstərib. 05. 01. 1994-cü ildə Ağdərə rayonunda şəhid olub. Binə Xocavar kənd tam orta məktəbi Başir Nuriyev adını daşıyır. |
| 152. | **Novruzov Rəmzi Siyavuş oğlu** | əsgər | | 11 avqust 1971-ci ildə İsmayıllı rayonunun Basqal qəsəbəsində anadan olmuşdur. Orta təhsilini İsmayıl rayonu Basqal qəsəbə tam orta məktəbində almışdır. O, 1989-cu ildə ordu sıralarına çağırılmışdır. Hərbi xidmətini 1991-ci ildə Türkmənistanın Kuşka şəhərində başa vurmuşdur. Hərbi xidməti başa vurduğu il Qarabağ müharibəsi başladığına görə həmin müharibədə iştirak etməyə başladı. O, 1992-ci ilin may ayında Laçın batalyonunda hərbi xidmətini davam etdirdi. O, döyüşçü taqımın kiçik komandiri olaraq Laçın istiqamətində Pircahan, Hoçaz, Bozgüney, Sonasar, Soyuqbulaq və digər kəndlərin müdafiəsində iştirak etmişdir. Son döyüşü Ağdərə istiqamətində olan Rəmzi Novruzov 2 sentyabr 1992-ci ildə Vəngli kəndi uğrunda gedən döyüşlərdə şəhid |

| | | | | |
|---|---|---|---|---|
| | | | | olmuşdur. İsmayıllı rayonunun Basqal qəsəbəsinin tam orta məktəbi şəhid Rəmzi Novruzovun adını daşıyır. |
| 153. | **Orucov Nazim Dursun oğlu** | əsgər | | 1967-ci ildə İsmayıllı rayonu Çərmədil kəndində anadan olub.<br>1994-cü ildə şəhid olmuşdur. 17 sentyabr 1996-cı il tarixli 124 saylı qərarına əsasən İsmayıllı rayonu Çərmədil kəndi tam orta məktəbi Nazim Orucov adını daşıyır. |
| 154. | **Ömərov Kamil Paşa oğlu** | əsgər | | 1975-ci ildə Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olub. 1993-cü ilin oktyabrında hərbi xidmətə yola düşüb. 1994-cü ilin yanvarında Füzuli rayonuna gəlib və Kərimbəyli kəndi uğrunda gedən döyüşlərə qatılıb. Fevral ayında həmin döyüşlərdə şəhid olub. Doğulduğu kənddə dəfn olunub. |
| 155. | **Paşayev Azər Qələndər oğlu** | əsgər | | 1 avqust 1973-cü ildə Laçın rayonunun II Tığik kəndində doğulmuşdur. 1992-ci ilin dekabr ayında hərbi xidmətə yollanmış, Lənkəran bölməsində xidmət etmişdir. 1993-cü ildə Ağdərə döyüş bölgəsinə göndərilmişdir. 1993-cü ilin 20 fevralında şəhid olub. Azər Paşayev Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. |
| 156. | **Pənahov Mübariz Sabir oğlu** | əsgər | | 1968-ci ildə Yevlax rayonunun Aran sovxozunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Sverdlovsk da Daxili qoşunlarda hərbi xidmətdə olub. 1992-ci il 3 martda milli orduya çağırılıb. Yevlax Batalyonu tərkibində bir ay hazırlıq keçəndən sonra Şuşaya gedib. Şuşanın ətraf kəndlərinin müdafiəsində vuruşub. 7 may 1992-ci ildə Xankəndi rayonu Kosalar kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub. Yevlax şəhəri Şəhidlər xiyabanında dəfn edilib. |
| 157. | **Rəhimov Abdulla ... oğlu** | əsgər | | 1958-ci ildə Bakıda anadan olmuşdur. İlk təhsilini Nəsimi rayon 247 nömrəli orta məktəbdə almişdir. Sonra 1975-ci ildə Abdulla Rəhimov əsgərliyə yollanmışdır. Qarabağ müharibəsi illərində Abdulla Rəhimov öz şücaətləri ilə seçilmişdir. 1994-cü il yanvarın 30-da Ağdərə uğrunda gedən döyüşlərdə həlak olmuşdur. Ailəli idi. 2 övladi var. Hal-hazırda oxuduğu 247 nömrəli məktəb onun adını daşıyır. |
| 158. | **Rəhimov Asif Dadaş oğlu** | əsgər | | 21 oktyabr 1974-cü ildə anadan olmuşdur. 7 noyabr 1993-cü ildə Hacıqabul rayonundan hərbi xidmətə çağırıldı. Azərbaycan Silahlı Qüvvələrinin Milli Ordusunun sıralarına əsgər kimi yollanan Asif Rəhimov 1994-cü ilin 20 aprel tarixində Füzuli rayonu uğrunda gedən döyüşlərdə mərdliklə döyüşərək şəhid olmuşdur. Hacıqabul rayonunun Atbulaq kəndində dəfn olunmuşdur. Subay idi. |
| 159. | **Rüstəmov Asif** | əsgər | | 1956-cı ilin avqust ayının 5-də Ağdam rayonunun Keştazlı kəndində dünyaya göz açmışdır. Kənd orta məktəbini bitirdikdən |

| | | | | |
|---|---|---|---|---|
| | **Rüstəm oğlu** | | | sonra, Rusiya Federasiyasının Kirov vilayətinə əsgəri xidmətinə göndərilib. Hərbi xidmətini başa vurduqdan sonra, bir müddət Rusiyada qalıb. 1980-ci ilin ortalarında Ağdama qayıdıb. Burada tikinti sahasində çalışıb. Qarabağ muharibəsi başlayanda könüllü şəkildə cəbhəyə yola düşüb. Qiyaslı batalyonunda komandir müavini kimi qanlı döyüşlərdə iştirak edib. 1992-ci il sentyabr ayının 10-da Ağdərə rayonunun Çıldıran kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub. Keştazlı kəndində dəfn olunub. Üç övladı və dörd nəvəsi var. |
| 160. | **Rüstəmov Eldəniz Nəsir oğlu** | əsgər | | 27 dekabr 1977-ci ildə İmişli rayonunun Yalavac kəndində anadan olmuşdur. 26 fevral 1998-ci ildə Qazax rayonunun Ermənistanla sərhəddə yerləşən "Vəlixan" döyüş mövqeyində öz vəzifə borcunu yerinə yetirərkən mina patlayışı zamanı həlak olmuşdur. Yalavac kəndində dəfn olunmuşdur. |
| 161. | **Salmanov Nizami Arif oğlu (Nizami Aydın)** | əsgər | | Gəncədə doğulmuşdu, orada Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutu bitirmişdi Nizami Aydın. Təyinat üzrə Qubada, Ruk, Zıxır kəndlərində müəllim işləmişdi. Sonra qayıtmışdı Gəncəyə. 1992-ci ilin iyunun 15-də tank komandiri Nizami Aydın (Nizami Arif oğlu Salmanov) Sırxavənd döyüşlərində böyük hünər göstərmiş, mühasirəyə düşən piyada bölməsini xilas etmək üçün, idarə etdiyi tankı birbaşa düşmən səngərinə sürüb mühasirəni yarmış, əsgərləri xilas etmişdi: özü isə yanan tankın içində qalmışdı. "Tərlan" adını verdiyi tankında yanıb kül olmaq bahasına olsa da, 40-a yaxın əsgəri düşmən əsirliyindən xilas edib. Publisist Qərib Mehdi Nizami Aydının 50 illik yubileyi ilə əlaqədar "Nizami Aydın şəhidliyi adlı kitab-poemanı çap etdirib. Gəncə şəhəri 18 nömrəli tam orta məktəb Nizami Aydın adını daşıyır. |
| 162. | **Suvarov Vəfalı Gülhəsən oğlu** | çavuş | | 2 mart 1959-cu ildə Rusiyanın Yaroslavl vilayətində çox uşaqlı ailədə anadan olmuşdur. Uşaqlığı və gəncliyi Azərbaycan Respublikasının Astara rayonunun Bala Şahağac və Kakalos kəndlərində keçmişdir. 14 yaşı olanda atası Gülhəsən Suvarov vəfat edib. Vəfalı Suvarov doğma kəndində məktəbi bitirmiş, Almaniyada hərbi xidmət keçmişdir. 1981-ci ildə ailə həyatı qurduqdan sonra Bakı şəhərinə Pirallahı qəsəbəsinə köçmüşdür. Müharibə başlayanda Vəfalı Suvarov AR Dövlət Neft Şirkətinin (SOCAR) "Azneft" İstehsalat Birliyinin keçmiş "H. Z. Tağıyev adına" Neft və Qaz Çıxarma idarəsində traktorçu peşəsində işləyirdi. 1993-cü ilin noyabr ayında könüllü olaraq cəbhəyə yollandı. Ağdam rayonunun azad olunması uğrunda döyüşmüşdür. Vəfalı Suvarov sıravi döyüşçü kimi döyüşə başlasa da komandirlik bacarığına görə qısa zamanda batalyon komandirinin köməkçisi vəzifəsinə qədər yüksəlmişdi. Hərbi hissə komandanlığının verdiyi əmrlərə uyğun olaraq, kəşfiyyat və digər çoxsaylı döyüş tapşırıqlarını yerinə yetirmişdir. Ermənistan Silahlı Qüvvələrinin çoxlu sayda |

| | | | | |
|---|---|---|---|---|
| | | | | canlı qüvvəsini və texnikasını məhv etmişdir. Vəfalı Suvarovun son döyüşü 1994-cü ilin aprel ayının sonlarında Ağdam rayonunun Güllücə və İlxıçılar kəndləri ətrafında oldu. İri miqyaslı hərbi təxribatlara başlayan Ermənistan Silahlı Qüvvələrinin məqsədi Ağdam rayonunun tam işğal olunması, əlverişli döyüş mövqelərinin tutulmasından ibarət olmuşdur. Bu məqsədlə ermənilər Ağdam rayonu istiqamətinə seçilmiş dəstələrini cəlb edərək hərbi təxribata başlamışdır. 1994-cü ilin aprel ayının əvvələrindən 12 may tarixinədək Ağdam rayonu uğrunda döyüşlər davam etdi. Vəfalı Suvarov son döyüşündə döyüş yoldaşlarının mühasirədən təkbaşına çıxarılmasına nail olmasına baxmayaraq özü döyüşdən çıxa bilmədi. İrəliləyən Ermənistan Silahlı Qüvvələri tərəfindən vurularaq şəhid oldu, nəşi səngərdə qaldı. Vəfalı Suvarovun dəfn olunduğu yer haqqında bu günədək heç bir məlumat yoxdur. Bakı şəhəri Əzizbəyov (indiki Xəzər) Rayon Məhkəməsinin 13.04.1998-ci il tarixli, 2-175/98 saylı Qətnaməsinə əsasən ölmüş (Şəhid) elan edilmişdir. Məhkəmənin qətnaməsinə əsasən şəhid Vəfalı Suvarovun ölüm günü 15 aprel 1994-cü il tarixidir. Birinci Qarabağ müharibəsində 4000-ə yaxın itkin düşənlər siyahısında Vəfalı Suvarovun da adı var. Yaşadığı Bakının Pirallahı rayonunun mərkəzində şəhidlərin adını əbədiləşdirilməsi üçün "Vətən uğrunda" abidə kompleksi inşa edilmişdir. Vəfalı Suvarovda daxil olmaqla 44 şəhidin mərmər lövhə üzərində şəkilləri, həmçinin ad və soyadları həkk olunub. Yaşadığı Bakının Pirallahı rayonunda şəhidimizin adını əbədiləşdirilməsi üçün plakatı qoyulub. Ailəli idi, Emin və Elçin adlı oğlu və Vüsalə adlı qızı var. Hal-hazırda böyük oğlu Emin Suvarov Vəkillər Kollegiyasının üzvüdür və Bakı şəhəri 20 saylı Vəkil Bürosunda fəaliyyət göstərir. |
| 163. | **Süleymanov Fərhad Əlihüseyn oğlu** | əsgər | | 15 sentyabr 1973-cü ildə Azərbaycanın Hacıqabul rayonunda anadan olmuşdur. Hacıqabul şəhər 3 saylı tam orta məktəbin 8-ci sinfini bitirib. Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olan Fərhad atasını ərkən yaşlarda itirmişdi. Sonra Fərhad Omsk şəhəri Ali Məktəbinə qəbul olundu, amma Fərhad vətəninin ağır günlərində təhsilini yarımçıq qoyub könüllü sürətdə cəbhəyə yollandı. Fərhad Süleymanov 1992-ci ildə könüllü sürətdə cəbhəyə yollandı. Azərbaycan Silahlı Qüvvələrinin Milli Ordusunun sıralarına əsgər kimi yollanan Fərhad ilk olaraq Murovdağda ən çətin və ən təhlükəli döyüş əməliyyatlarında iştirak etdi. Qorxu bilmədən dəfələrlə mühasirədən çıxdı. Nəticədə Fərhadı taqım komandiri qoydular. Fərhadın tabeliyində olan 30 nəfər döyüşçü ilə birlikdə cəsarətlə vuruşurdu. 1993-cü ilin may ayında ağır döyüş zamanı ermənilər Fərhadı və ondan başqa 7 nəfər döyüşçünü əsir götürmüşdür. 1993-cü ilin may ayının əvvəllərində çox işgəncədən sonra onları Ermənistanın paytaxtı İrəvan şəhərinə gətirdilər. Ermənilər mayın 16-dan 30-na kimi onlara dəhşətli işgəncələr verdilər. |

| | | | | |
|---|---|---|---|---|
| | | | | 1995-ci ilin yanvar ayının 29-da Fərhadı insanlığa sığmayan işgəncələrlə şəhadətə yetirdilər. Subay idi. |
| 164. | **Süleymanov Fərman Salman oğlu** | əsgər | | 18 noyabr 1980-ci ildə anadan olmuşdur. Fərman Süleymanov 4 yanvar 1999-cu ildə Hacıqabul rayonundan hərbi xidmətə çağırıldı. Azərbaycan Silahlı Qüvvələrinin Milli Ordusunun sıralarına əsgər kimi yollanan Fərman Süleymanov 2000-ci ilin 7 may tarixində Tərtər rayonu uğrunda gedən döyüşlərdə mərdliklə döyüşərək şəhid olmuşdur. Hacıqabul şəhərində dəfn olunmuşdur. Subay idi. |
| 165. | **Süleymanov Nüsrət Muradəli oğlu** | əsgər | | 1971-ci ildə Oğuz rayonunun Yaqublu kəndində anadan olmuşdu. Onun qismətinə az, lakin mənalı və şərəfli bir ömür payı düşdü. Orta təhsilini 1978–1988-ci illərdə Yaqublu kənd orta məktəbində alıb. Məktəbi bitirəndən sonra bir müddət Üzümün İlkin Emalı zavodunda işləmişdi. 1989–1991-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdu. Hərbi xidmətini keçmiş Almaniya Demokratik Respublikasında keçirmişdi. 1991-ci ildə hərbi xidmətdən qayıdan Nüsrət "Azərbaycan" kolxozunda sürücü işləyirdi. Lakin hər gün eşitdiyi qara xəbərlər onun da sakit həyatını əlindən almışdı. Minlərlə digər idid oğlanlarımız kimi Nüsrət də düşmənə qarşı intiqam hissi ilə yaşayırdı. N. Süleymanov 1992-ci ilin sentyabr ayında cəbhəyə yollandı. Bir müddət Tərtər və Laçın rayonlarının müxtəlif bölgələrində döyüşən N. Süleymanov əsil döyüşçü kimi püxtələşmişdi. O, döyüşçü dostlarının və komandanlığın rəğbətini qazanmışdı. N. Süleymanov 1992-ci il oktyabr ayının 9-da Laçın rayonunun Xınalılar kəndi yaxınlığındakı Sarıbaba dağı ətrafında gedən ağır döyüşdə həlak oldu. Şəhidlik zirvəsinə ucaldı, tək bir ananın yox, minlərlə ananın övladı oldu. Oğuz rayonunun Yaqublu kəndində dəfn olunmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 sentyabr 1995-ci il tarixli 215 saylı qərarı ilə onun adı qonşu Zərrab kənd orta məktəbinə verilmişdir. |
| 166. | **Süleymanov Rəsul Həmzət oğlu** | polis | | 1973-cü ildə Balakən,Qaysa anadan olmuşdur. 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz məntəqəsi istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur. Sıravi Rəsul Süleymanov 19 noyabr 1992-ci il tarixdə respublikamızın suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir. İgid döyüşçünün məzarı Bakı şəhərindədir. |
| 167. | **Şahbazov Cavanşir Əmir oğlu** | əsgər | | 8 noyabr 1967-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 41 saylı orta məktəbin 8-ci sinfini 1982-ci ildə bitirdikdən sonra 1985-ci ilə qədər 3 il 77 saylı texniki-peşə məktəbində oxumuş və tornaçı peşəsinə yiyələnmişdir. Cavanşir Şahbazov 1985–1987-ci illərdə sovet ordusu sıralarına çağırılaraq Ukrayna Respublikasında 2 il hərbi xidmət keçdikdən sonra Gəncə |

| | | | | |
|---|---|---|---|---|
| | | | | şəhərinə qayıtmışdur. O, hərbi xidmətdən qayıtdıqdan sonra Gil-Torpaq İstehsalat Birliyində kükürd sexinə aparatçı vəzifəsinə təyin olunmuşdur. Cavanşir Şahbazov 21 oktyabr 1990-cı ildə ailə qurmuş və 2 qız övladı dünyaya gəlmişdir. Zavodda işləyən zaman 20.08–1993-cü il tarixdə Kəpəz Rayon Hərbi Komissarlığı tərəfindən hərbiyə çağırılmışdır. Qəhrəmanımız əvvəlcə Ağdam rayonu ərazisində yerləşən 701 saylı hərbi hissədə xidmət etmiş, sonra 701 saylı hərbi hissənin tərkibində kömək üçün irəliyə doğru gedərək Beyləqan rayonunu xain erməni təcavüzkarlarından müdafiə etmişdir. Cavanşir Şahbazov da həmin hərbi hissənin tərkibində böyük hünər göstərmiş, döyüşlərdə həmişə öndə getmiş və rəhbərlik etdiyi 21 nəfərdən ibarət əsgərlərin taqım komandiri olmuşdur. Şəhidimiz Şahbazov Cavanşir Əmir oğlu 11 dekabr 1994-cü il tarixdə Ağdam rayonu uğrunda gedən qızğın döyüşlərin birində qəhrəmancasına Şəhid olmuş Gəncə şəhərinə gətirilərək 12 dekabr 1994-cü il tarixdə Şəhidlər Xiyabanında Dəfn olunmuşdur. |
| 168. | **Tağıyev Malik Sadiq oğlu** | əsgər | | 15 aprel 1960-cı ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1992-ci ilin 3 noyabrında şəhid olub. Malik Tağıyev Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. |
| 169. | **Talıbov Elman Kamal oğlu** | leyten ant | | 5 aprel 1969-cu ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1993-cü ilin 9 fevralında şəhid olub. Elman Talıbov Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. |
| 170. | **Talıbov Rasim Ələkbər oğlu** | əsgər | | 22 avqust 1971-ci ildə Yevlax rayonunun Havarlı kəndində doğulmuşdur. Təhsilini Havarlı kənd orta məktəbində almışdır. 1989–1991-ci illərdə Moskva ətrafında sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçib.<br><br>19 avqust 1992-ci ildə Yevlax RHK tərəfindən Milli orduya çağırılıb. 1992–1994-cü illərdə çavuş rütbəsində Qarabağ döyüşlərində, xüsusən Ağdərə, Ağdam, Füzuli, Qubadlı rayonlarındakı döyüşlərdə iştirak edib. Ağdərə rayonunun Vəngli kəndində ayağını don vurmuşdur. Müalicə olunduqdan sonra Çıldıran uğrunda gedən döyüşlərdə iştirak etmiş, don vurmuş ayağından güllə yarası almışdır. Bakı Hərbi hospitalında müalicə olunmuş, bu dəfə Füzuli cəbhəsinə göndərilmişdir. 6 avqust 1994-cü ildə Füzuli döyüşləri zamanı yanına düşən minamyot qəlpəsindən yaralanaraq şəhid olmuş, doğulduğu Havarlı kəndində dəfn olunmuşdur. |
| 171. | **Talıbov Şamil Şəmsəd din oğlu** | əsgər | | 24 avqust 1974-cü ildə Astara rayonunun Miki kəndində anadan olub. 1993-cü ilin oktyabrında orduya çağırılıb. Qəhrəmanımızın son döyüşü Aşağı Əbdürrəhmanlı kəndi uğrunda olub. O, 11 yanvar 1994-cü ildə şəhidlik zirvəsinə ucalıb. |

| | | | | |
|---|---|---|---|---|
| 172. | **Usubov Şərbət Həbib oğlu** | gizir | | 5 aprel 1965-ci ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1993-cü ilin 17 martında şəhid olub. Şərbət Usubov Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. |
| 173. | **Vahabov Ədalət Qurban oğlu** | polis | | 5 dekabr 1972-ci ildə Şabran rayonunda doğulub. 19 iyul 1992-ci ildə Ağdərənin Həsənriz məntəqəsi istiqamətində gedən döyüş zamanı şəhid olmuşdur. 19 noyabr 1992-ci ildə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir. Məzarı Bakı şəhərindədir. |
| 174. | **Verdiyev Haqverdi Camal oğlu** | leytenant | | 12 aprel 1958-ci ildə Şəmkir rayonunun Qapanlı kəndində anadan olmuşdur. O, 1976-cı ildə İ. Məmmədov adına Qapanlı kənd orta məktəbini bitirmişdir. Haqverdi Verdiyev 1977-ci ildə Sovet ordusunda xidmət etdikdən sonra Rusiyanın Novqorod şəhərində milis məktəbinə daxil olmuş və oranı fərqlənmə dipolmu ilə bitirərək leytenant rütbəsinə yüksəlib hava limanında desant qoşunlarında xidmət etmişdir. Ağdərə bölgəsində Atek kəndində qəhrəmancasına şəhid olmuş və 5 sentyabr 1992-ci ildə Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir. Haqverdi Verdiyev ailəli olmuş, Zamiq və Ramil adlı 2 oğlan övladları var. |
| 175. | **Vəliyev Qəzənfər Həmid oğlu** | əsgər | | 1968-ci ildə Zəngilan rayonunda anadan olub. 1991-ci ildə hərbi xidmətə yollanan və Zəngilan rayonu uğrunda gedən döyüşlərə qatılan Qəzənfər Vəliyev 1993-cü ildə elə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. |
| 176. | **Yəhyayev Əfqan Hacıağa oğlu** | əsgər | | 30 oktyabr 1972-ci ildə Xaçmaz rayonu Çiləgir (Xaçmaz) kəndində anadan olub. Ailədə 5 qardaş və 1 bacı ümumlikdə 6 uşaq olmuşdular. Ailədə yaşca ən böyük uşaq Əfqan olmuşdur. 1-ci sinifdən 8-ci sinifə kimi Çiləgir kənd məktəbində, 9 və 10-cu sinifləri Nərəcan kənd orta məktəbində təhsil almışdır. 1991-ci il fevral ayında 1-ci Qarabağ müharibəsinə könüllü olaraq qatılmışdır.7 oktyabr 1992-ci ildə Xocəvənd rayonu Kuropatkino kəndi uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub. Xaçmaz rayonu Çiləgir kənd qəbiristanlığında dəfn olunmuşdur. Subay idi. 5 dekabr 2011-ci ildə Əfqan Yəhyayevin şəhid olduğu ərazidə Xocavənd Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə xatirə kompleksi yaradılıb. Azərbaycan Respublikası Nazirlər kabinetinin qərarına əsasən Xaçmaz rayon Çiləgir kənd tam orta məktəbinə Əfqan Yəhyayevin adı verilib. |
| 177. | **Yəhyayev Oktay Qənbər oğlu** | əsgər | | 4 may 1971-ci ildə Astara rayonunun Şiyəkəran kəndində anadan olub. 1988-ci ildə Şiyəkəran kənd tam orta məktəbini bitirib. 1990–1992-ci illərdə hərbi xidmətdə olub. 12 sentyabr 1992-ci ildə müharibənin qızğın yerinə – Ağdamın Seyidlər kəndinə yollanıb. 5 oktyabr 1992-ci ildə şəhidlik zirvəsinə ucalıb. |

| | | | | |
|---|---|---|---|---|
| 178. | **Zeynalov Anar Niyaz oğlu** | əsgər | | 17 may 1972-ci ildə Göyçayda anadan olmuşdur. 1986-cı ildə Göyçay şəhərində yerləşən 3 nömrəli orta məktəbi bitirmişdir. 1991-ci ildə hərbi xidmətə yollanan və Zəngilan rayonu uğrunda gedən göyüşlərə qatılan Anar Zeynalov, 24 avqust 1992-ci ildə Zəngilan rayonunun Qazançı kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Subay idi. |
| 179. | **Zeynalov Dadaş Muxtar oğlu** | mülki | | 1949-cu ildə Zəngilan rayonunda anadan olub. Zəngilan rayonunun şəbəkə rəisi olan Dadaş Zeynalov 1993-cü il 24 martda ermənilərin Zəngilanı qrad atəşinə tutması nəticəsində şəhid olub. |
| 180. | **Zinharov Faiq Turan oğlu** | əsgər | | 1973-cü ildə Ağdaş rayonunun Abad kəndində anadan olub. 1992-ci ildə şəhid olmuşdur. Ağdaş rayonunun Abad kəndində dəfn olunmuşdur. Abad kənd tam orta məktəbi Faiq Zinharov adını daşıyır. |
| 181. | **Zülfüqarov Zülfüqar Emin oğlu** | əsgər | | Zülfüqarov Zülfüqar Emin oğlu 1958–ci il dekabrın 4-də Göyçay rayonunun Qaraxıdır kəndində anadan olub. 1974–cü ildə kənd orta məktəbinin səkkizinci sinfini bitirib Şamaxı Pedaqoji texnikumuna daxil olur. Buranı bitirəndən sonra Göyçayın Ləkçıplaq kənd orta məktəbində müəllimlik etməyə başlayır. 1979–cu ildə hərbi xidmətə yola düşür. Xidməti borcunu başa çatdırandan sonra işləmək üçün Tümen vilayətinə gedir. 1982–ci ildə vətənə qayıdan Zülfüqar iki il kolxozda əmək fəaliyyətini davam etdirir. 1984–cü ildə öz ixtisası üzrə Şəkər kənd orta məktəbinə müəllim təyin olunur. Bir müddət sonra Göyçay Toxuculuq kombinatında usta köməkçisi kimi fəaliyyətini davam etdirir. 1992–ci ilin fevralında könüllü olaraq cəbhə bölgəsinə yola düşür. Füzuli rayonunun Əmiralılar və Kuropatkino kəndlərində həmyerlisi Davud Əzizovun başçılıq etdiyi vzvodda reyd əməliyyatlarında iştirak edir. Həmin ilin avqustunda ağır döyüşlərin birində şəhid olub və doğma kəndlərində dəfn olunub. |